www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet   12 iyun 2025-ci il  Cümə axşamı  № 100  (8710)  Qiyməti  60 qəpik

## Xəbər

### Azərbaycanda qadınlara zorakılıq artıb - qorxunc statistika

yazısı səh.14-də

## Gündəm

### Türkiyə ordusu Naxçıvanda



Azərbaycana xor baxanlara daha bir siqnal

yazısı səh.6-da

### Yeni seçkilərə yeni katolikosla - Paşinyan sülh müqaviləsini tezləşdirir, yoxsa...

yazısı səh.6-da

### İsraildən oğurlanan məxfi nüvə sənədləri - böyük savaş qapıda?

yazısı səh.5-də

### İranın bitməyən Zəngəzur xofu - Xamneyinin adamı nəyin dərdini çəkir?

yazısı səh.7-də

### Bir milyonluq “qanpulu işi”ndə yenilik

yazısı səh.11-də

### Daha bir türk ölkəsi ilə Rusiya arasında gərginlik

yazısı səh.7-də

### Azərbaycana qarşı köhnə iftira - Bakıdan tutarlı cavab

yazısı səh.12-də

### Mərkəzi Bank qərarını verdi: inflyasiya hədəf daxilindədir...

yazısı səh.13-də

### Qonşu ölkə azyaşlılara enerji içkisi satışını yasaqladı - bəs Azərbaycan?

yazısı səh.14-də

### I-IV qrupların imtahan nəticələri bu tarixdə açıqlanacaq

yazısı səh.2-də

# KREMLİN QARABAĞ ÜZƏRİNDƏN ŞOK BAZARLIQ TƏKLİFİ - BAKIDAN GƏRƏKƏN REAKSİYA

Putinin köməkçisinin qalmaqallı müsahibəsindəki məkrli niyyət üzə çıxır; Krımı və 4 regionu “Yeni Rusiya” kimi tanıya bilərikmi?



yazısı səh.8-də

# Müəllimə bahalı hədiyyə vermək problemi - “Qızıl orta”nı necə tapmalı?

Təşəkkür, yoxsa təzyiq aləti; **deputat:** “Müəllimi belə məsələlərə görə cinayət və ya hansısa inzibati məsuliyyətə cəlb etmək yanlışdır...”

yazısı səh.13-də



Seyran Ohanyan

### Atası azərbaycanlı Xocalı canisi həbsin bir addımlığında

yazısı səh.9-da



Rəşad Sultan

### Tanınmış cərrah-ginekoloqdan donorlarla bağlı mühüm təklif

yazısı səh.15-də



### Orbandan anti-Rusiya bəyanatı - Putin azsaylı dostlarını da itirir

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 100 (8710) 12 iyun 2025



## Prezident bu yolun təmirinə 1,5 milyon manat ayırdı

**On iki min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (28 km) - Köhnə Xaçmaz-Xaspoladoba-Gəncəli-Bəbəli-Əzizli-Əhmədoba-Müşviq-Müşkür-Hacıqazma-Hacıəh- mədoba-Şərifoba-Qaracəlli-Xəzərli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə (AAYDA) 1,5 milyon manatı ayrılıb.**

Musavat.com xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb. Maliyyə Nazirliyinə bu sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

## Azərbaycanlı diplomat evində ölü tapıldı

**Azərbaycanın Özbəkistandakı səfirliyində konsul vəzifəsində çalışmış İlqar İbrahimov evində ölü tapılıb. Bakupost.az xəbər verir ki, o, qış aylarında Bakıya qayıdıbmış. İlqar İbrahimovun ölümünün səbəbi bəlli deyil.**

Qeyd edək ki, o, uzun müddət diplomatik xidmət sahəsində çalışıb, Azərbaycanın Özbəkistandakı səfirliyində birinci katib və konsul vəzifələrini tutub.

Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidməti İlqar İbrahimovla bağlı sorğunu cavablandırmaqdan imtina edib. Bildirilib ki, səfirliklərin və XİN-in heyəti barədə mətbuata məlumat verilmir.

## Həyatında narkotik yetişdirən şəxs saxlanıldı

**Lənkəran Şəhər Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən kultivasiya yolu ilə yetişdirilən narkotik tərkibli bitkilərin aşkar edilməsi istiqamətində tədbirlər davam etdirilir. DİN-in Mətbuat Xidmətinin Lənkəran regional qrupundan APA-nın cənub bürosuna verilən məlumata görə, keçirilən əməliyyat nəticəsində əvvəllər də qeyd edilən cinayət əməlinə görə məhkum olunmuş Cəfər Dadaşov saxlanılıb. Onun üzərindən marixuana, həyətyanı sahəsindən isə kultivasiya yolu ilə yetişdirdiyi 80 ədəd çətənə kolu aşkarlanıb. Faktla bağlı cinayət işi başlanıb, saxlanılan şəxs barəsində həbs-qətimkan tədbiri seçilib.**

## Tiktoker ev dustaqlığına buraxıldı

**Nərimanov Rayon Məhkəməsində tiktoker "Magerramov" ləqəbli Əmrah Məhərrəmovun barəsində olan həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı verdiyi vəsatətə baxılıb. Əmrah Məhərrəmovun barəsində olan həbs-qətimkan tədbiri ev dustaqlığı ilə əvəzlənib.**

Xatırladaq ki, Ə.Məhərrəmov ötən ilin dekabr ayında saxlanılıb. Ə.Məhərrəmov Cinayət Məcəlləsinin 234.1-1-ci (Satış məqsədi olmadan külli miqdarda qanunsuz narkotik vasitələr və ya psixotrop maddələri saxlama və ya daşıma) maddəsi ilə təqsirli bilinərək barəsində həbs-qətimkan tədbiri seçilib. Qeyd edək ki, bundan əvvəl "Xozeyn" ləqəbli tiktoker Vüqar Kərimov da ev dustaqlığına buraxılıb.

# I-IV qrupların imtahan nəticələri bu tarixdə açıqlanacaq




**Dövlət İmtahan Mərkəzi (DİM) I və IV ixtisas qrupları üzrə qəbul imtahanının nəticələrinin nə vaxt elan olunacağına aydınlıq gətirib. DİM-dən bildirilib ki, I və IV ixtisas qrupları üzrə qəbul imtahanının nəticələrinin növbəti həftənin sonuna kimi elan olunması nəzərdə tutulur.**

"Nəticələr hazır olan kimi elan olunur, konkret vaxt demək mümkün deyil", - DİM bəyan edib.



## Bu gün 36 dərəcə isti olacaq

**İyunun 12-də gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 20-23° isti, gündüz 27-32° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 759 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 70-75%, gündüz 45-50% olacaq.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var.

Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23 isti, gündüz 31-36° isti, dağlarda gecə 8-13° isti, gündüz 20-25° isti olacaq.

## Hərbçimiz intihar etdi

**Müdafiə Nazirliyinin hərbi qulluqçusu, 2002-ci il təvəllüdlü MAXE Soltanov Adil Sahib oğlu intihar edib. "Unikal"ın əldə etdiyi məlumata görə, A.Soltanov 8 iyun tarixində gecə saatlarında yaşadığı evin həyətində özünü asıb. Qeyd edək ki, intihar edən hərbçi bir neçə ay idi MAXE kimi işləməyə başlamışdı.**

## Hansı bölgələrdə gecikdirilmiş kredit daha çoxdur?




**Bu il mayın 1-nə olan məlumata görə, Azərbaycanda vaxtı keçmiş (problemli) kreditlərin ümumi məbləği 451,7 milyon manat təşkil edir.**

Modern.az Mərkəzi Bankın statistik məlumatlarına istinadən xəbər verir ki, görə problemli kreditlərin əksəriyyəti Bakı şəhərində cəmlənib - 344,9 milyon manat. Bu ölkə üzrə ümumi məbləğin təxminən 76 faizinə bərabərdir.

Reytinqdə ikinci pillədə 16,5 milyon manatla Sumqayıt, üçüncü yerdə isə 12 milyon manatla Gəncə qərarlaşıb. Bu 3 şəhər birlikdə ölkədəki gecikmiş kreditlərin 83 faizindən çoxunu təşkil edir.

Bölgələr üzrə statistikaya baxdıqda Abşeron rayonu (7 milyon manat), Şəmkir (4,9 milyon manat), Naxçıvan şəhəri (4,3 milyon manat) və Neftçala (4 milyon manat) ən yüksək göstəricilərə malik rayonlar sırasındadır.

Lerik, Oğuz, Şabran, Yardımlı və Naftalan kimi rayonlarda problemli kreditlərin məbləği 0,1 milyon manat (yəni 100 min manat) və ya ondan da aşağıdır.

Ekspertlər bildirir ki, gecikmiş kreditlərin böyük hissəsinin bir neçə şəhərdə - xüsusilə Bakıda toplanması maliyyə sistemində riski artırır. Bu banklar üçün əlavə təzyiqlər yarada və kredit portfellərinin sağlamlığını poza bilər.

Mütəxəssislər hesab edirlər ki, maliyyə institutları regionlar üzrə şaxələndirilmiş kredit strategiyası həyata keçirməli, xüsusən də inkişafdan geridə qalan bölgələrdə maliyyə xidmətlərinin əlçatanlığını artırmalıdır.




## Şəmkirdə maşın aşıb, ölən var

**Şəmkirdə baş verən yol qəzasında ölən və xəsarət alanların adları məlum olub. APA-nın yerli bürosunun məlumatına görə, hadisə nəticəsində avtomobildə olan sərnişin 1994-cü il təvəllüdlü H.İsmayılova ölüb.**

Avtomobilin sürücüsü, 2001-ci il təvəllüdlü Ş.Hüseynova və sərnişin 2021-ci il təvəllüdlü Əli Cavanşir oğlu xəsarət alıb. Məlumata görə, qəzada ölən H.İsmayılova və xəsarət alan Ş.Hüseynova Şəmkir rayonun Dəllər Cırdaxan kənd orta məktəbinin müəllimləridir.

## Sayt rəhbəri və oğluna hökm oxundu

**Rüşvət almaqda təqsirləndirilən "Dogruxeber.com" saytının rəhbəri İlham Həsənov və onun oğlu, saytın redaktoru Renar Həsənovun cinayət işi üzrə məhkəmənin yekun prosesi keçirilib.**

APA xəbər verir ki, Lənkəran Ağır Cinayətlər Məhkəməsində hakim Aqil Nuriyevin sədrliyi keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, İlham Həsənova 10 il, Renar Həsənova isə 1000 manat pul cəzası təyin edilməklə, 5 il müddətinə azadlıqdan məhrum etmə cəzası verilib.

Qeyd edək ki, ötən il sayt rəhbəri İlham Həsənov və onun oğlu, Renar Həsənovun ayrı-ayrı şəxslərdən hədə-qorxu ilə pul tələb etmələri və dələduzluq əməlləri barədə daxil olan məlumatlar əsasında Şirvan Şəhər Polis Şöbəsində araşdırma aparılıb.

Onlar ayrı-ayrı şəxsləri həqiqəti əks etdirməyən, rüsvayedici məlumatlar yayacaqları ilə hədələməkdə, dələduzluq yolu ilə müxtəlif məbləğlərdə pul vəsaitini ələ keçirməkdə şübhəli bilinirlər. Ata və oğul cinayət məsuliyyətinə cəlb olunaraq barələrində həbs-qətimkan tədbiri seçilib.

Onlara Cinayət Məcəlləsinin 178.1-ci (Dələduzluq, yəni etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə), 182.2.1-ci (Hədə-qorxu ilə tələb etmə, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) və 182.2.2-ci (Hədə-qorxu ilə tələb etmə, təkrar törədildikdə) maddələri ilə ittiham irəli sürülüb.

YENİ MÜSAVAT
N 100 (8710) 12 iyun 2025

# Njde yeni, saxta “dövlət katibi” oldu - Bakıda məhkəmə gedirkən...

**2025-ci ilin tən yarısı bitmək üzrədir. Bu il Azərbaycan-Ermənistan barışığı yönündə yeganə müsbət hadisə mart ayında sülh sənədi mətninin tam razılaşdırılması sayıla bilər. Təəssüf ki, daha qabağa gedib iki qonşu xalq arasında düşmənçilik səhifəsini həmişəlik çevirmək, iqtisadi-ticari əlaqələrin və diplomatik münasibətlərin qurulmasını yaxınlaşdırmaq mümkün olmayıb.**

Səbəb köhnədir - erməni tərəfinin qeyri-konstruktivliyi, davam edən söz oyunu və sülh oyunbazlığı, sənədin imzalanması üçün Bakının iki məlum şərtini təmin etməyə tələsməməsidir. Azərbaycandan asılı artıq heç nə yox. “Top” çoxdan qarşı meydanda. Hərçənd nikbin ovqatda olan soyasi müşahidəçilər də var...

“Nikol Paşinyan sözün əsl mənasında Ermənistanı yenidən "formatlamağa", ermənilər üçün yeni səhifə açmağa çalışır, “real Ermənistan” ideyasını təbliğ edir".

Bunu “Moskva-Bakı”ya müsahibəsində tanınmış rusiyalı ekspert Aleksandr Perenciyev deyib.

Analitik Paşinyanı Azərbaycan üçün yaxşı variant sayır: “Daha əvvəl nə söyləməsindən asılı olmayaraq, dinc dönəm məhz onun hakimiyyəti altında başlayıb. Ermənistan Qarabağı Azərbaycanın ərazisi kimi tanıyıb, sərhədlərin delimitasiyası prosesi başlayıb, sülh müqaviləsinin mətni razılaşdırılıb. ”Qarabağ klanı"nın mövqeyini nəzərə alsaq, belə perspektiv mümkün idimi?"



Təhlilçi hətta inanır ki, bir gün Ermənistan Azərbaycandan Qarabağa görə üzr də istəyəcək. “Bu düzgün və məntiqli olardı”, bildirib...

Perenciyev bəlkə də haqlı, Nikol Paşinyan Azərbaycan üçün ən əlverişli rəhbərdir. Amma və lakin... Nikolun nala-mıxa vurması və bəzi qəribə gedişləri olmasa. Misal üçün, ötən həftə İrəvan Dövlət Universitetində tələbələrlə görüş zamanı Paşinyan bilərəkdən ya bilməyərəkdən sülh prosesi üçün olduqca zərərli bir ifadə işlədib. “Biz 44 günlük müharibə nəticəsində vətənin bir hissəsini itirdik, lakin daha suveren və daha müstəqil dövlət əldə etdik” söyləyib.

Bunu “Qarabağ Azərbaycandır”, “Dünyada Qarabağı Azərbaycan ərazisi saymayan ölkə yoxdur” deyən Paşinyan bəyan edir. Belə çıxır, o, qanuni və tarixi ərazimizi - Qarabağı hələ də “ermənilərin vətəni” saymaqdadır və bunu dilə gətirməkdən çəkinmir. Bununla da Bakının konstitusiya dəyişikliyi ilə bağlı tələbinin nə dərəcədə haqlı və legitim olduğunu dünyaya bir daha nümayiş etdirmiş olub...

Yaxud bu qəbildən başqa fakt. Ermənistanda separatçıların Qarabağda qurduğu xunta rejiminin sonuncu “rəhbəri” Samvel Şahramanyanın həbsi gözlənilir. Vəkili bildirib ki, o, “vəzifə ”səlahiyyətləri ilə bağlı səhlənkarlıqda, silah-sursatı azərbaycanlılara təhvil verməkdə" ittiham olunur. Ayrı sözlə, Sahramanyan dövlətimiz əleyhinə fəaliyyətə, qanunsuz silahlı dəstələrə başçılıq eləməyə görə yox, Azərbaycana qarşı axıradək silahlı müqaviməti təşkil etməməyə, qanunsuz silah-sursatı Bakıya təhvil verməyə, qısası, “artsaxı buraxmaq” haqda “sərəncam” imzalamağa görə mühakimə edilir.

Nəhayət, lap “isti” fakt. Dünən İrəvanda separatçı ünsürlər sanki paralel dünyada yaşayırmışlar kimi, axmaqcasına Njde İskəndəryan ad-soyadlı zatı “artsax”ın yeni “dövlət katibi” təyin ediblər. Az öncə uydurma qurumun qondarma parlamentinin yeni “sədri”nin “seçildiyi” haqda məlumat yayılmışdı.

İndi bütün bunları necə oxuyaq, Nikol Vovayeviç? Minsk Qrupunun rəsmən buraxılmasının sülh müqaviləsinin imzalanması ilə əlaqələndirməsi, Ermənistan üçün rekord həcmdə hərbi büdcə ayrılması və sürətlə silahlanma da ciddiyə alınarsa, İrəvanın sülh bəyanatlarının səmimiliyinə inanmaq mümkünmü? Paşinyan doğrudanmı Azərbaycan və Türkiyə ilə barışıq xətti tutub? Elə isə qulağının dibində davam edən “artsax” şousunu, revanşist tör-töküntülərin Azərbaycana qarşı həyasız demarşlarını niyə durdurmur, separatçıların “ipini” birdəfəlik niyə yığmır?..

❑ **Zahid SƏFƏROĞLU**

# Nasizmin buynuzu olmur - başqa millətləri “buynuzlamaq” elə nasizmin özüdür

**Diqqətli oxucular fikir vermiş olar, milli mediada hər gün rus nasizmi haqqında yazılar, xəbərlər dərc olunur.**

Son bir ildə, daha dəqiqi, 2024-cü ilin mart ayında Moskva yaxınlığında yerləşən “Krokus siti”də baş verən dəhşətli terror aktından sonra bu mövzuda yazılar daha da intensivləşib.

Bunun başlıca səbəbi odur ki, o hadisədən sonra Kalininqraddan Saxalinə qədər, Rusiyanın hər yerində nasizmin təzahürləri özünü qabarıq şəkildə bürüzə verməyə başladı.

Buraya başqa ölkələrdən, xüsusilə də Rusiyada “qara millətlər” adlandırılan Qafqaz və Orta Asiya xalqlarından olan miqrantlara sərt münasibətdən tutmuş rusiyalı siyasilərin şovinist açıqlamalarana qədər çox şey daxildir.

Özünü rus millətçilərinin ideoloqu kimi aparan Duqin, eks-prezident Medvedyev, eləcə də Dumanın ayrı-ayrı deputatları, RF prezidentinin köməkçiləri hər gün “rus millətinin xüsusi hüquqları”ndan danışır, postsovet ölkələrə qarşı iradlar, ittihamlar irəli sürürlər.

Sovet dövründə milyonlarla oxucusu olan nəşrlərin elektron versiyasında hər gün nasizm ruhunda yazılmış materiallara rast gəlmək olar. Həmin materiallarda sovet dövrünə nostaljidən tutmuş, çar dövrünü öyməyə, “şanlı keçmiş”in bərpasına çağırışlara qədər hər şey var.

RF Dumasında elə bir həftə olmaz ki, miqrantlara qarşı nəsə bir yasaqlayıcı, hüquq məhdudlaşdırıcı qanun qəbul olunmasın.

Hüquq-mühafizə orqanları “yadellilər”ə qarşı xroniki reydlər aparır, sərt tədbirlər görür, bu zaman insan haqlarına dair hər cür qanun və konvensiyaları tapdayırlar. Belə hərəkətlərə kriminal jarqonla “hədsizlik” (“bespredel”) deyilir.

Ən diqqətçəkən məqam odur ki, rus nasizmi haqqında




yazan təkcə Azərbaycan mediası deyil, belə materiallara Gürcüstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan mətbuatında da rast gəlmək olar.

İki gün öncə Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiyalar Universitetinin rektoru Şerzod Kudratxoca Facebook-dakı paylaşımında Moskvada miqrantlara qarşı reydləri kəskin pisləyib və onları nasizmin təzahürü adlandırıb.

O, həmvətənlərini Rusiyaya əmək miqrasiyasından imtina etməyə çağırıb, vaxtaşırı, az qala hər gün sənədləri yoxlanılan özbəklərin alçaltmalara, döyülmələrə məruz qaldığını qeyd edərək, yazıb ki, Rusiyada Özbəkistan vətəndaşlarına hörmət edilmir.

“Gənclərimizə demək istəyirəm: Rusiyaya getməyin! Yalnız turist kim gedə bilərsiniz. Orada sizi döyür, təpikləyir, alçaldır, ləyaqətinizə toxunurlar. Rusiyada sizə dəyər vermirlər, əksinə, pis davranırlar. Öz əhalisinin görmədiyi ən ağır işi siz görürsünüz, amma buna məhəl qoymurlar” - rektor özbək miqrantlara çağırış edib.

Kudratxoca miqrantların ünvanına işlədilən təhqiramiz sözlərdən misallar çəkərək, əmək miqrantlarının və tələbələrin diz üstə sürünməyə məcbur edilməsi və fiziki zorakılığa məruz qalması səhnələrini təsvir edib.

Rektor özbəklərin belə aşağılanması hallarının Rusiya imperiyasında da baş verdiyini xatırladaraq, 1914-1916-cı illərdə Türküstanda baş verən üsyanları xatırladıb.

Gerçəkdən başqa xalqlara aşağılayıcı münasibətin çar dövründəki kimi olduğu göz önündədir. O zaman boyarlar, “xozeyn”lər, “çinovnik”lər və imperiya zabitləri yerli əhalini necə “vəhşi barbarlar” adlandırır və onlarla “qul-kölə” kimi davranmağı lazım bilirdilərsə, indi də elədir.

İnsafən, sovet dövründə rus nasizimi bu qədər aqressiv və çılpaq şəkildə deyildi. Pis-yaxşı bütün xalqlar dost elan edilmişdi və hamı yoldaş idi. Başqa xalqları aşağılamağa cəhd edən partiya xadimi, müəssisə rəhbəri, hərbçilər dərhal cəzalandırılardı.

1991-ci ildə bütün müstəqillik qazanmış SSRİ respublikalarında millətçilik, daha dəqiqi, vərənpərvərlik duyğusu gücləndikdə, xalqlar milli dövlətçiliyin nə olduğunu bilərək bununla qürur duyanda, bu rusların acığına gəldi və onlarda nasizm duyğularını alovlandırdı.

İndi “vətənpərvər” ruslar bu düşüncədədirlər ki, ukraynalıların, moldovanların, Qafqaz və Orta Asiya xalqlarının müstəqil dövlət qurmaq haqları yoxdur, onlar həmişə Rusiyanın “qidalandırıcısı” olmalı, əkib-becərib onları saxlamalıdır.

Bu düşüncə gündən-günə genişlənir və istər-istəməz bu kimi basqılara, təhqiramiz davranışlara məruz qalan xalqların ziyalı kəsiminin hisslərinə toxunur və onlar səslərini qaldırırlar.

Bir neçə il öncəyə qədər Özbəkistanda heç bir alim, professor bu mövzularda fikir bildirməzdi, bildirsə də, hakimiyyət tərəfindən cəzalandırılardı. Ancaq Şerzod Kudratxoca artıq ikinci ildir ki, öz xalqını hüquqlarını Rusiyadan qoruyur və ona bir söz demirlər.

Əslində Kreml 2024-cü ilin fevralında özbək dilini bilməyən özbəkləri “işğalçılar və ya axmaqlarla” müqayisə edən rektorun cəzalandırılmasını tələb etmiş, ancaq buna müvəffəq olmamışdı.

Kudratxoca miqrantların və vətəndaşlığa namizədlərin Ukraynada hərbi əməliyyatlarda iştiraka məcbur edilməsindən narahatlığını da bildirib. Bu da həqiqətdir. Gerçəkdən də Moskva rus xalqının genefondu zərbə almasın deyə Ukrayna cəbhəsinə, labüd ölümə federasiya ərazisindəki etnik azlıqların kişilərini, vətəndaşlıq almış miqrantları göndərir. Hətta bir çox miqrantlara vətəndaşlıq verdikdən 1 saat sonra çağırış vərəqəsi verib müharibəyə basırlar.

Bununla belə, məhz Kreml və XİN sözçüləri rus nasizminə etiraz edən ayrı-ayrı ölkələrdə rusofobiyadan danışırlar, öz ölkələrindəki kseonofobiya isə elə bir miqyasdadır ki, müasir dünyada kserosurəti yoxdur.

❑ **Xalid KAZIMLI,
“Yeni Musavat”**

MÜSAVAT
N 100 (8710) 12 iyun 2025



## Rusiyada miqrantların hər il narkotikə görə yoxlanması təklif olunub

**Leonid Slutskinin rəhbərlik etdiyi Rusiya Liberal Demokrat Partiyasının (RLDP) (qatı millətçi mövqedən çıxış edir) deputatları müvəqqəti qeydiyyatı və yaşayış icazəsi olan miqrantlardan narkotik istifadəsi və təhlükəli infeksiyaların olması ilə bağlı illik tibbi müayinədən keçmələrini tələb etməyi təklif ediblər.**

"Yeni Müsavat" xəbər verir ki, partiyanın mətbuat xidməti qanun layihəsinin miqrasiya nəzarətini gücləndirməyə və rusiyalıların epidemioloji təhlükəsizliyini təmin etməyə yönəldiyini bildirib.

Qeyd olunur ki, Rusiyada əcnəbi vətəndaşlar yalnız ilkin olaraq sənədləri təqdim edərkən tibbi müayinədən keçirlər. Qanunvericilikdə təkrar nəzarət nəzərdə tutulmayıb. Təşəbbüs müəllifləri hesab edir ki, bu, əhalinin sağlamlığı üçün təhlükə yaradır və narkotiklərlə mübarizə siyasətinin prinsiplərini pozur.

"Heç kimə sirr deyil ki, miqrantlar hər şeydə, o cümlədən təhlükəli xəstəliklərin olması və narkomaniya məsələsində risk qrupudur. Təbii ki, Rusiyada yaşayış icazəsi və ya müvəqqəti yaşamaq üçün icazə alarkən əcnəbilər müvafiq tibbi müayinədən keçirlər, arzuolunmaz namizədlər aradan qaldırılır. Bununla belə, miqrantların daha da ağlabatan davranışına və ölkəmizdə qəbul olunmuş kommunal yaşayış normalarına uyğunluğuna kim təminat verə bilər? Faktlar bunun əksini göstərir, - Slutski "Gazeta.Ru" nəşrinə bildirib.

Sələfi Vladimir Jirinovskidən aldığı estafeti daşıyan partiya sədri miqrasiya tələblərinin sərtləşdirilməsinin vacibliyini də vurğulayıb. Onun sözlərinə görə, pozuntuların aşkar edilməsi və ya müayinədən keçməkdən imtina edilməsi üçün miqrantların yaşayış icazələri dərhal ləğv edilməli və ölkədən çıxarılmalıdır.

Xatırladaq ki, "Rusiya Federasiyasında xarici vətəndaşların hüquqi statusu haqqında" qanuna dəyişiklik edilməsi təklif edilir.

❑ **NİGAR,**
**"Yeni Müsavat"**

## Gürcüstanın XİN başçısı: "Müxalifət Brüsselə təlimatlanmağa çağırılıb"

**Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili müxalifətin son zamanlar artan siyasi fəallığına münasibət bildirib.**

"Report"un Gürcüstan bürosu xəbər verir ki, nazir müxalifət nümayəndələrinin Brüsselə səfərini Gürcüstan əleyhinə koordinasiyalı fəaliyyətin bir hissəsi kimi dəyərləndirib.

M.Boçorişvili onların oraya "yeni təlimatlar almaq" üçün çağırıldıqlarını iddia edib.

"Bu, daha çox Brüsseldə bürokratlardan yeni göstərişlər almağa bənzəyir - necə davranmalı, hansı addımları atmalı olduqları barədə. Müxalifət və bəzi siyasi fəallar arasında koordinasiyalı fəaliyyət müşahidə edirik. Yəqin ki, yeni təlimatlar alacaq və həmin əsasda gələcəkdə müxtəlif aksiyalar planlaşdıracaqlar", - deyə XİN rəhbəri bildirib.

Nazir qeyd edib ki, Gürcüstan hakimiyyəti bütün bu fəaliyyətlərə qarşı cavabını iş və real fəaliyyətlə verir: "Biz ölkədə sabit inkişaf imkanlarının təmin olunması istiqamətində çalışırıq. Müxalifətin təxribatlarına cavabımız konkret və ardıcıl fəaliyyətdir".

**Ermənistanın baş naziri Nikol Paşinyanın nə qədər ziddiyyətli biri olduğunu özü də yaxşı bilir. Bu mənada onun bir-birini təkzib edən açıqlamaları, bəyanatları təəccüb doğurmur. Odur ki, Qarabağ haqqında yenə də nostaljiyə qapılaraq "itirilmiş vətən" nağılını danışan erməni baş nazirin heç bir sözünə, vədinə, hətta imzasına etibar etmək olmaz. Əslində imzasına özünün də etibar etmədiyini 2025-ci ilin 10 noyabr bəyannaməsinin - kapitulyasiya aktının 9-cu maddəsini yerinə yetirməməklə isbatlayıb.**

# Paşinyan niyə Azərbaycanı 28 Mayda təbrik etmədi?

Nikol Paşinyan 2018-ci ildə baş nazir seçiləndən sonra ilk olaraq hara gəlmişdi? Bəli, Şuşaya! Onun Şuşada yallı getməsini, araq-çaxırdan məst olub yad torpaqda "dədəsinin yurdu"ndakı kimi sərələnməsi də yadımızdadır.

Düzdür, bir neçə ay sonra Azərbaycan Prezidenti ilə ayaqüstü görüşdən xoşbəxt olduğunu elə özü dolayısı ilə etiraf etmişdi. Amma nə olsun? 2019-cu ilin avqustunda Xankəndinə yenə də qanunsuz gəldi və "Qarabağ Ermənistandır. Nöqtə", sərsəmləməsini dilə gətirməklə müharibə alovunu alışdırdı. Tovuz döyüşləri, yeni ərazilər uğrunda yeni müharibə... Bütün bunlar "sülhpərvər" Paşinyanın rəhbərliyi dövrə düşür. 44 günlük müharibənin baş verməsinin də səbəbkarı odur, əgər havadarlarının fitnə-fəsadına uymasa, məsələləri masada da yoluna qoymaq mümkün idi, necə ki, başına "Dəmir yumruq" dəydikdən sonra 3 rayonumuzu döyüşsüz təhvil verdi.

Vaxtilə oğlu Aşotu Qarabağa (!!!) hərbi xidmətə yollayan Paşinyan bu günlərdə erməni gənclərə real Ermənistandan danışmaqla özünü sülh göyərçini kimi təqdim etməyə çalışmışdı. O gənclərdən birisi cəsarət sahibi olub "bəs niyə oğlunuzu indi Azərbaycan ərazisi hesab etdiyiniz Qarabağa əsgər yollamışdınız?", sualını versəydi... Amma heç imkan tapdılarmı? Nikol Paşinyan bunun ardınca müsahibə verərək Qarabağı "itirilmiş vətən" adlandırdı. Paşinyanın içərisində başqa bir Paşinyan da var və vaxtaşırı "sülhpərvər" Nikolla balans yaratmaq üçün revanşa cəhd edir. İndi erməni gəncliyi, bütövlükdə Ermənistan əhalisi hansı Paşinyana inansın?..

Bir neçə ay öncə Ermənistanın baş naziri parlamentdə belə demişdi: "2018-ci ildən bəri Qarabağ məsələsi ilə bağlı üzləşdiyimiz ən böyük problem odur ki, 2018-ci ilin aprelindən belə bir vəziyyətlə üzləşdik ki, istər-istəməz güzəşt və ya müharibə yolu ilə getməli idik".



6 il sonra etiraf etmişdi, amma bu etirafdan iki-üç ay qabaq Azərbaycan Prezidenti ilə görüş təklifindən boyun qaçırmışdı. O görüşdən Makronun təsiri ilə yayındığı barədə etirafını deyək ki, 6 il sonra dilə gətirdi, bu, nəyi dəyişəcək?

Tez-tez Ermənistanın 29 743 kvadrat kilometr əraziyə "sahib olduğunu" təkrarlayan Paşinyan əslində çox narahatdır, istəyir ki, bu rəqəmi Azərbaycan da təsdiqləsin. Hətta auditoriyaların birində Hayastan yaradılarkən onun bu qədər əraziyə sahib olmadığını etiraf etmişdi. Necə ki, ötən illərdə Ermənistanın "kadastr sənədinin olmadığı" etirafını dilə gətirmişdi. Narahatlığı anlaşılandır, çünki "kupça"nı Azərbaycandan almalıdır. Azərbaycan isə ona konstitusiya ilə ərazi iddiası irəli sürən bir ölkənin nəinki 29 743 kvadrat kilometr, heç 19 min kvadrat kilometr ərazisinin olduğunu da bəyan etməz. Çünki 1918-ci ildə İrəvan şəhərini güzəşt etdiyimiz zaman ermənilər 9 min kv.km-lə kifayətlənmişdilər və sonrakı illərdə qəsb edilən 20 min kv.km-dən artıq ərazi Azərbaycana məxsusdur! Bunu Paşinyan yaxşı anlayır, ona görə də bir addım irəli, iki addım geri atmaqla fürsət qazanmağa çalışır.

Bir müddət öncə Azərbaycan və Ermənistan "Avropa Siyasi Birliyi"nin sammitinin Bakı və İrəvanda keçirilməsi üçün bir-birinin namizədliyini qarşılıqlı şəkildə dəstəkləyib. Bundan əvvəl bənzər nümunə COP29-a münasibətdə olmuşdu, Ermənistan öz namizədliyini geri çəkərək - əslində belə ağır yükün altından çıxa bilməyəcəyini anlayaraq - Azərbaycanın namizədliyinə etiraz etməmişdi. Amma ziddiyyətli baş nazir COP29-a gəldimi? Makron gözünü ağartdı və nəinki özü, hətta nümayəndəsi də Bakıya gəlmədi. Məntiqsizlik məhz belə olur.

Bu yaxınlarda Nikol Paşinyanın Azərbaycanı Qurban bayramı münasibətilə təbrik etməsi ajiotaj doğurdu. Düzdür, münasibətlərin tarixində bu, bir ilkdir. Sovet dövründə Qurban bayramına münasibət bəlli olduğundan o zaman da belə bir təbrikləşmə olmamışdı. Nəhayət, Paşinyan X hesabında "Azərbaycan Respublikası və xalqını Qurban bayramı münasibətilə təbrik edirəm. Ölkələrimizə və xalqlarımıza sülh və firavanlıq arzu edirəm", - paylaşımı ilə sükutu pozdu, ilkə imza atdı. Amma özünün yanlış hərəkətləri ilə minlərlə insanın qurban getməsinə səbəbkar birisinin Qurban bayramı təbriki ona münasibəti dəyişə biləcəkmi? Çətin. Nikol Paşinyanın dini bayramla bağlı təbriki məhz erməni katalikosu ilə müharibəyə başladığı zaman ünvanlaması da diqqət çəkir. Yəni baxın, kilsə, 2-ci Qaregin başda olmaqla, sülhə, barışa qarşıdır, mənsə Azərbaycanı, həmçinin Türkiyəni təbrik edirəm.

Amma gerçəkdən sülh istəyən heç olmasa mina xəritələrini verməkdən boyun qaçırmaz, 4 min azərbaycanlı itkin haqqında xəbərləri gizləməzdi. Paşinyanın əlində elə də çətin deyil: həmin dövrdə orduya rəhbərlik edən 5-10 generalı, polkovniki 2-3 saat sorğu-sual etməklə azərbaycanlı əsir, girovların öldürülüb harada basdırıldığını aydınlaşdıra bilər.

Digər tərəfdən, Paşinyanın Azərbaycana Qurban bayramı münasibətilə təbrik göndərməsi nə qədər müsbət addım olsa da, vacib bir xatırlatmanın yeri var: baş nazir niyə Azərbaycan Prezidenti və xalqını 28 May - Müstəqillik günü ilə bağlı təbrik etmədi? Paşinyan məhz buradan başlamalı idi, həm də Azərbaycan ərazilərindən 107 il öncə kəsilib, "Hayastan" yaradılması etirafını dilə gətirsəydi, daha normal olardı. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan bir gün sonra - 29 mayda İrəvan şəhəri və ətraf ərazilər ermənilərə güzəşt edilib və Paşinyan bu gün tarixi türk şəhərində oturub. Əgər o, doğrudan da sülh imzalamaq istəyirsə, əsas təməllərdən başlamalıdır, qərbi azərbaycanlıları qəbul etməli, evlərinə dönmələrinə şərait yaratmalı, İrəvan qazılığının fəaliyyətinə imkan yaratmalı və s. Yoxsa Qurban bayramı ilə bağlı təbrik paylaşandan sonra "itirilmiş vətən"dən moizə oxuyursa, demək, mövqeyində sağlam adam deyil...

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 100 (8710) 12 iyun 2025

# İsraildən oğurlanan məxfi nüvə sənədləri - böyük savaş qapıda?

## “İranın İsrailin nüvə obyektləri ilə bağlı 1000-ə yaxın gizli sənəd əldə etməsi...”



**İranın xüsusi xidmət orqanları İsrailin nüvə obyektləri və layihələri ilə bağlı 1000-ə yaxın gizli və strateji sənədi əldə edib. Bu barədə İranın dövlət televiziyası İRİB məlumat yayıb. Məlumata görə, bu məlumatlar İsraildən çıxarılıb və hazırda araşdırılır.**

Yayılan məlumatlara görə, əməliyyat “bir müddət əvvəl” həyata keçirilib və materialların İrana gizli şəkildə daşınması vaxt tələb etdiyi üçün bu məlumat indi açıqlanır. İddialara görə, sənədlər artıq təhlükəsiz məkanlara çatdırılıb, hazırda onların araşdırılması və hissə-hissə yayımlanması planlaşdırılır.

Eyni zamanda “Hizbullah”a yaxınlığı ilə tanınan “Al-Mayadeen” telekanalı daha irəli gedərək bildirib ki, İran yalnız yazılı materialları deyil, həm də İsrailin nüvə obyektləri ilə bağlı geniş həcmli foto və videosübutları əldə edib. Bu materialların emalının vaxt aparacağı vurğulanır.

Hadisənin fonunda İsraildə iki nəfərin - Roy Mizrahi və Almoq Atiasın - İran xeyrinə casusluqda şübhəli bilinərək saxlanıldığı məlum olub. Lakin İsrail hüquq-mühafizə orqanları bu məsələ ilə bağlı ətraflı məlumat verməkdən çəkinir. İran tərəfi isə bəyan edir ki, həmin şəxslər sənədlərin ötürülməsi əməliyyatından sonra saxlanılıb.

Məsələ ilə bağlı nə Tehran, nə də Təl-Əviv rəsmi və dolğun izahat təqdim edir. İran mediasının iddialarının ard-arda və koordinasiyalı şəkildə yayılması, Tehranın bu məlumatdan geniş informasiya müharibəsi vasitəsi kimi istifadə etməyə çalışdığını göstərir. İranın kəşfiyyat naziri İsmail Xətib məlumatı tezliklə ictimaiyyətə açıqlayacağına söz verib. Ölkənin Ali Milli Təhlükəsizlik Şurası xəbərdarlıq edib ki, İsrail İranın nüvə obyektlərinə hücum edərsə, Tehran yəhudi dövlətinin gizli nüvə obyektlərinə cavab zərbəsi vuracaq.

Bu nə sənədlərdir, İsrail tərəfi niyə susur? Fakt doğrudursa, bu, İsrail üçün nə dərəcədə təhlükə kəsb edir? Təl-Əviv Tehranın nüvə obyektlərinə hücumu tezləşdirə bilərmi?

“İranın İsrailin nüvə obyektləri ilə bağlı 1000-ə yaxın gizli sənəd əldə etməsi ilə bağlı iddialar regionda onsuz da yüksək olan gərginliyi yeni mərhələyə daşıya bilər. Hərçənd İran mediası bu əməliyyatı "tarixi uğur" və "yeni kəşfiyyat mərhələsi" kimi təqdim etsə də, lakin indiyədək ictimaiyyətə heç bir konkret sübut və ya vizual materialın təqdim olunmaması bu iddiaların doğruluğunu sual altına alır".

Bu fikirləri “Yeni Müsavat”a **Milli Məclisin deputatı Vüqar İskəndərov** deyib. Onun sözlərinə görə, əgər bu sənədlər həqiqətən də əldə olunubsa, bu, İsrailin strateji təhlükəsizliyi üçün ciddi təhdid hesab oluna bilər: “İsrailin bu məsələdə susqunluq nümayiş etdirməsi, bir tərəfdən, məlumatın ciddiliyini təsdiqləyə biləcəyi kimi, digər tərəfdən, informasiya sızmasının əhatəsini və mənbəyini araşdırmaq üçün zaman qazanmaq məqsədi daşıya bilər. Eyni zamanda, "Al-Mayadeen" kimi Tehrana yaxın media orqanlarının paralel və sinxron şəkildə məlumat yayması, bu hadisənin İran tərəfindən yalnız kəşfiyyat uğuru kimi deyil, həm də psixoloji və informasiya müharibəsinin bir vasitəsi kimi istifadə edilməyə başlandığını göstərir".

**Deputatın qənaətinə görə, İsraildə iki nəfərin casusluqda şübhəli bilinərək saxlanılması isə bu hadisənin real komponentlərinin ola biləcəyini gücləndirir:** “Lakin konkret sübutların ictimaiyyətə təqdim edilməməsi həm beynəlxalq ictimaiyyətdə, həm də regional oyunçular arasında ehtiyatlılıq və şübhə yaradır. Əgər İranın iddiaları doğrudursa və bu materiallar həqiqətən də strateji dəyərə malikdirsə, Təl-Əviv Tehranın nüvə proqramına qarşı daha aqressiv və təcili tədbirlər görməyə yönələ bilər. Bu isə bölgədə genişmiqyaslı qarşıdurma riskini ciddi şəkildə artırır”.

**AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramov hesab edir ki, İran kəşfiyyatının İsrailin nüvə və digər obyektləri ilə bağlı strateji sənədləri əldə etməsi ehtimalı var:** “Uzun illər ərzində İsrail kəşfiyyatı İran ərazisində müvafiq kəşfiyyat fəaliyyəti həyata keçirdiyi kimi, İranın da boş dayanmadığı və İsrail ərazisində casus şəbəkəsi formalaşdırması tamamilə mümkündür. Onu da nəzərə almaq lazımdır ki, İran ərazisində hələ də 25 min civarında yəhudi yaşayır və onlar da müxtəlif ölkələrdə olan yəhudilərlə, o cümlədən də İsrailin özündə yaşayan və 1979-cu il inqilabından etibarən tədricən İranı tərk edib İsrailə köçən yəhudilərlə əlaqədədirlər. İrandan köçən yəhudilərin nə qədərinin könüllü, neçəsinin İran xüsusi xidmət orqanları tərəfindən casusluq fəaliyyəti üçün göndərildiyini isə bilmək mümkün deyil. Yəni qısası, İranın əlində həqiqətən də hansısa məlumatlar ola bilər. İran tərəfinin müvafiq kəşfiyyat məlumatlarına malik olması ilə bağlı xəbərləri fonunda İsraildə iki nəfərin İran xeyrinə casusluqda şübhəli bilinərək saxlanılması da bu ehtimalları artırır.

Lakin ortada qaranlıq alan bir məqam var. Bu sənədlər nə qədər gizli sənədlərdir və həmin sənədlərdə həqiqətən də İsrailin deyilən sayda obyektləri haqqında müfəssəl məlumatlar varmı? Əgər kəşfiyyat məlumatları bu dərəcədə əhəmiyyətli və gizli məlumatlardırsa, onları ictimailəşdirmək İrana nə verir?

Bu şəkildə kəşfiyyat məlumatlarına malik olmaq İsrailin İrana mümkün hərbi əməliyyatları zamanı İrana üstünlüklər verə bilərdi. Yəni başqa sözlə, İsrailin hücumlarına qarşı həmin obyektləri hədəfə almaqla İran İsrailə olduqca böyük zərbə vura bilərdi. Amma həmin məlumatları ictimailəşdirmək İsrailə müvafiq əks tədbirlər görmək imkanı tanıya bilər. Yox, əgər haqqında danışılan məlumatları ictimailəşdirməkdə məqsəd İsrailin nüfuzuna zərbə vurmağa hesablanıbsa, bu da indiki halda effektiv yol deyil. Çünki İran tərəfindən bu məlumatların ələ keçirilməsi ilk növbədə İsrailin xüsusi təhlükəsizlik xidmətinin nüfuzunu ləkələyəcək. İsrailin xüsusi təhlükəsizlik xidməti olan “Şin Bet”lə İranın özünə bir nömrəli düşmən elan etdiyi Netanyahu arasındakı münasibətlər isə məlumdur. İndiki halda bu məlumatların ələ keçirilməsi Netanyahunun “Şin Bet”ə qarşı mövqelərini daha da gücləndirə bilər.

Bütün bunların fonunda İsrailin hansı addımlar atacağını təbii ki, zaman göstərəcək. Amma düşünürəm ki, İsrailin İrana qarşı hərbi əməliyyatlara başlaması, nüvə obyektlərini hədəfə alması kimi fəaliyyəti həyata keçirməsinin İran tərəfindən strateji sənədlərin əldə edilməsi ilə bir bağlılığı olmayacaq. Təl-Əvivin Tehranın nüvə obyektlərinə hücumu yalnız ABŞ-ın razılığı ilə və Ağ Evin müəyyənləşdirdiyi vaxtda həyata keçirilə bilər”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Dumadan Fransanın məşhur şirkətinə hücum

**Fransanın “Renault” avtomobil konserninin Ukraynada dronların istehsalına başlamaq niyyətini açıqlaması Rusiyada son dərəcə qıcıqla qarşılanıb. Musavat.com xəbər verir ki, Rusiya Dövlət Dumasının deputatı Mixail Şeremet (“Vahid Rusiya”) bu xəbərdən sonra Fransanın avtomobil istehsalçısı “Renault”un loqotipinin faşist simvolları ilə eyniləşdirilməsini və bununla da onun Rusiyada istifadəsini qadağan etməyi təklif edib.**

“Təklif edirəm ki, Ukraynada pilotsuz təyyarələrin istehsalı başlasa, "Renault" loqotipi qadağan olunmuş faşist simvolları ilə eyniləşdirilsin və bu, avtomobil istehsalçısının Rusiyada işləməsi üçün bir növ bloka çevriləcək", - Şeremet bildirib.

Daha əvvəl "Franceinfo" radiosu mənbələrə istinadən məlumat verişdi ki, Fransanın avtomobil istehsalçısı “Renault” Ukraynada dron istehsal edəcək. Şirkət özü də Fransa hökumətinin onunla əlaqə saxladığını təsdiqləsə də, “indiki mərhələdə heç bir qərar verilmədiyini” bildirib.

“Renault” avtomobil istehsalçısı Rusiya bazarını 2022-ci ildə tərk edib. Fransız şirkəti AvtoVAZ-dakı payını (səhmlərin 67,69%-i) FSUE NAMI-yə, “Renault Russia” zavodunu isə Moskva hökumətinə verib. Rostec, AvtoVAZ-ın qalan səhmlərini özündə saxlayıb. “Renault”un altı il ərzində səhmləri geri almaq imkanı var, lakin zavodu ala bilməyəcək. Bu ilin fevralında “Renault”un baş direktoru Luka de Meo şirkətin Rusiyaya qayıtmasını istisna etmədiyini bildirib. O, “vəziyyət sürətlə inkişaf etdiyindən” geri dönüş ssenarisini hələ düşünmədiyini söyləyib.

❑ **Elşən MƏMMƏDƏLİYEV, Musavat.com**

# Britaniyanın Gürcüstandakı səfirliyi seçkilərlə bağlı qrant layihələrini ləğv edib

**Böyük Britaniyanın Gürcüstandakı səfirliyi ölkədə oktyabr ayında keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı planlaşdırılan qrant layihələrinin qeyri-müəyyənlik səbəbindən ləğv olunduğunu bəyan edib.**

“Report”un Gürcüstan bürosu bu barədə diplomatik nümayəndəliyin açıqlamasına istinadən xəbər verir.

Açıqlamada qeyd olunub ki, bu qərar seçki prosesində şəffaflıq və rəqabətliliyin artırılmasına yönəlmiş mühüm təşəbbüslərin həyata keçirilməsinə əngəl yaradacaq.

Səfirliyin məlumatına əsasən, Birləşmiş Krallıq tərəfindən təklif olunan qrantlar seçicilərin maarifləndirilməsi və vətəndaş müşahidəçiliyi kimi fəaliyyətləri əhatə edirdi. Bu təşəbbüslər Gürcüstanın Mərkəzi Seçki Komissiyası tərəfindən də faydalı və zəruri hesab olunub.

Böyük Britaniya Gürcüstanda demokratiyanın inkişafına dəstək verməyə hazır olduğunu da bəyan edib.

YENİ MÜSAVAT
N 100 (8710) 12 iyun 2025

# Türkiyə ordusu Naxçıvanda - Azərbaycana xor baxanlara daha bir siqnal

**Azərbaycanla Türkiyə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq, Naxçıvanda "Sarsılmaz qardaşlıq-2025" kompüter dəstəkli komanda-qərargah və "Mustafa Kamal Atatürk-2025" döyüş atışlı birgə taktiki təlimlərinə hazırlıq məqsədilə Azərbaycan-Türkiyə dövlət bayraqlarının dəyişmə mərasimi keçirilib. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.**

Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) Qərargahından hərəkətə başlayan bayraq taqımı Sədərək sərhəd keçid məntəqəsinə - Araz çayı üzərindəki "Ümid" körpüsünə doğru yürüşə başlayıb. Eyni zamanda, Türkiyənin bayraq taqımı da Ağrı vilayətinin Doğubəyazit rayonundan mərasimin keçiriləcəyi ünvana doğru yürüş edib. "Ümid" körpüsündə Azərbaycan Respublikasının dövlət himni və Türkiyə Respublikasının istiqlal marşı ifa edildikdən sonra bayraqların dəyişmə mərasimi olub. Sonra təlimə cəlb edilən bölmələr və hərbi texnika sərhəd-keçid məntəqəsindən Naxçıvana yola düşüblər.

İki qardaş ölkələrin ordularının birgə təlimləri tez-tez keçirilir. Bununla həm hərbi müttəfiqliyin səviyyəsi artırılır, həm bədxahlara güc nümayiş olunur, həm NATO ordusunun təcrübəsinə yiyələnirik. Laçında keçirilən zirvə və ardınca Naxçıvanda baş tutan təlimlər bir daha Azərbaycana xor baxan, təhdid edən qüvvələrə siqnal olmalıdır. Onsuz da Şuşa Bəyannaməsi bu gücü, birliyi özündə əks etdirir, lakin təlimlərlə müttəfiqliyin möhkəmlənməsinə töhfə verilir.

Bu təlimlərin əsas hədəfi nədən ibarətdir? Azərbaycanda Pakistan ordusunun da iştirakı ilə gələcəkdə birgə təlimlər mümkündürmü?

**Hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov "Yeni Müsavat"a bildirdi ki, Türkiyə Azərbaycan müstəqillik qazandıqdan sonra Silahlı Qüvvələrin formalaşmasına yardım göstərib:** "O zaman orduda kadr çatışmazlığı var idi. Sonrakı dövrdə də iki ölkə arasında hərbi-texniki əməkdaşlıq inkişaf etdi. Türkiyə Azərbaycanda kadrların hazırlanması, hərbi məktəblərin proqramlarının formalaşmasında böyük rol oynayıb. Hər il Azərbaycan və Türkiyə silahlı qüvvələri birgə hərbi təlimlər keçirirlər. Bu, Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürüdür. Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında" 2020-ci il fevralın 25-də Bakı şəhərində imzalanmış saziş mövcuddur. Hərbi təlimlər bu sazişin tələblərindən irəli gəlir. İki ölkə arasında hərbi əməkdaşlığın bugünkü vəziyyətini 3 vacib məsələ müəyyənləşdirir:

- Birincisi, NATO ilə əməkdaşlıq sənədləri. Bu çərçivədə NATO-nun aparıcı ölkələrindən olan Türkiyə Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsinə kömək göstərir;

- İkincisi, Azərbaycanın təhlükəsizlik sənədləri və iki ölkə arasında imzalanmış strateji müqavilələr;

- Üçüncüsü, Türkiyənin milli regional maraqları və həmçinin, qardaş ölkənin milli təhlükəsizlik sənədləri ilə bağlıdır.

Birgə hərbi təlimin əsas məqsədi Türkiyə ilə Azərbaycan arasında bağlanmış Şuşa bəyannaməsinin ruhuna da uyğundur. Hər hansı bir dövlətin bu hərbi təlimlərdən narahat olmasına ehtiyac yoxdur. Ancaq Naxçıvanda keçirilən birgə hərbi təlimlər Ermənistana bir mesaj kimi də qəbul edilə bilər. Kimsə heç vaxt bu fikrə düşməsin ki, Naxçıvana qarşı məkrli planlarının gerçəkləşdirilməsinə imkan veriləcək. Azərbaycan-Türkiyə hərbi təlimləri hansısa ölkənin ərazisini işğal etmək üçün deyil. Təbii ki, bu təlimlər həm də siyasi məna daşıyır. Bu təlimlər bir daha dünyaya mesajdır ki, Azərbaycanla Türkiyə arasında hərbi, siyasi əlaqələri, dostluq qardaşlıq münasibətlərini heç kim poza bilməz, bu iki dövlət həmişə bir yerdə olacaq. Təlimlərin hərbi əhəmiyyəti isə Azərbaycan Ordusunun daha da modernləşdirilməsi, döyüş taktiki hazırlığının inkişaf etdirilməsidir. Keçirilən hər bir təlim Azərbaycan Ordusunun Türkiyə ordusu modelinə keçidinə ciddi təsir göstərir".



Ekspert qeyd etdi ki, Azərbaycan öz müttəfiqi ilə birgə hərbi təlimlərini davam etdirəcək. Bu hərbi təlimlər plan əsasında həyata keçirilir və bundan sonra da keçiriləcək. Gələcəkdə Naxçıvanda Azərbaycan-Türkiyə-Pakistan birgə hərbi təlimlərinin keçirilməsi də mümkündür.

**R.Məhərrəmov dedi ki, regionda müharibə təhlükəsi bitməyib. Müharibə təhlükəsi bitmədiyi üçün bu cür birgə hərbi təlimlər mütəmadi keçirilməlidir:** "Ermənistan hakimiyyəti sülh bəyanatları versə də sülh sazişini imzalamaqdan yayınır. Ermənistanın bu cür qeyri-səmimiliyi, hücum silahları ilə silahlanması sülhə xidmət etmir. Ermənilər revanşist çıxışlar edirlər, qisasçılıqdan danışırlar, sürətlə silahlanmaya qədəm qoyub yeni-yeni silahlar alırlar və s. Azərbaycan isə belə bir vəziyyətdə Ermənistanla sülh müqaviləsi bağlamaq istəyir. Bununla da bütöv regionda problemə son qoyula bilər. Ermənistan bunu istəmirsə, deməli, Azərbaycan hər an başlaya biləcək müharibəyə hazırlaşmalıdır. Ona görə də bütün qoşun növlərində qardaş ölkə Türkiyə ilə birgə təlimlər zaman-zaman keçirilir və bundan sonra da keçiriləcək. Azərbaycan hər an qapını döyəcək müharibəyə hazır olaraq özünün müdafiəsini gücləndirməli və düşmənin başını daha sərt şəkildə əzməlidir. Bu baxımdan Türkiyə-Azərbaycan birgə təlimlərinin həm hərbi, həm də siyasi əhəmiyyəti var. Bu təlimlər regionda daimi sakitlik olmayınca, sülh sazişi bağlanmayınca, Ermənistan Azərbaycana ərazi iddiasını kənara qoymayınca, Azərbaycanın ərazi bütövlüyünü tanımayınca davam edəcək və etməlidir. Azərbaycana qarşı kim təcavüz etməyə qalxacaqsa, həmin anda ona cavab vermək üçün Azərbaycan Ordusu hərbi qabiliyyətini artırır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Yeni seçkilərə yeni katolikosla - Paşinyan sülh müqaviləsini tezləşdirir?

**Ermənistanın baş naziri Nikol Paşinyanın II Qareginin timsalında erməni kilsəsinə açdığı dava həlledici fazaya daxil olub. Paşinyan katolikosu yenə sərt tənqid edərək, onu istefaya çağırıb.**

Məlumatlara görə, Paşinyan II Qareginə son ultimatumu verib və tələbinə əməl edilməzsə, onun həbsi də istisna deyil. Belə görünür, Ermənistan rəhbəri artıq onunla haqq-hesab çürütməyin zamanının çatdığını düşünür. Odur ki, o, kilsəyə qarşı heç vaxt olmadığı qədər sərt, israrlı və prinsipial görünür.

Yada salaq ki, keşiş Baqrat Qalstanyanın hakimiyyət əleyhinə yürüşləri kilsənin elə geniş sosial bazasının olmadığını üzə çıxarmışdı.



Sirr deyil ki, Rusiyanın arxasında durduğu Köçəryan-Sərkisyan cütlüyü ilə erməni katolikosluğunu həm hakimiyyətə, həm də uydurma "artsax" məsələsinə və konstitusiya dəyişikliyi məsələsinə münasibətdə eyni revanşist strategiya birləşdirir. Türkə nifrətdən yoğrulmuş bu narrativ ondan ibarətdir ki, Qarabağ Azərbaycanın tərkibində ola bilməz, "artsax" məsələsi bitməyib və konstitusiyada Azərbaycan və Türkiyəyə ərazi iddiası ilə bağlı müddəa çıxarıla bilməz. Bu mənada iki qonşu xalqın barışığına qarşı olan kilsənin ənənəvi ictimai-ideoloji dayaqlarının sarsıdılması, sözsüz ki, rəsmi Bakının, Azərbaycan xalqının da köklü maraqlarına cavab verir.

Paşinyan növbəti və ya erkən parlament seçkiləri ərəfəsi kilsəyə münasibətdə öz hədəfinə çatacaqmı və o halda Bakı ilə sülh anlaşması nə dərəcədə yaxınlaşa bilər?

Bu arada radikal-revanşist deputat Qarnik Danielyan deyib ki, o, vətəndaş müharibəsi təhlükəsini görür: "Əminəm ki, Paşinyan bu yolla gedir, onun müvafiq yol xəritəsi var".

Ermənistan katolikosa görə qarışa bilərmi?

**Politoloq Yusif Bağırzadə "Yeni Müsavat"a bildirdi ki, Nikol Paşinyan və II Qareginin timsalında hakimiyyətlə erməni kilsəsi arasında olan gərgin münasibətlər uzun illərdir davam edir:** "Hələ Paşinyanın hakimiyyət uğrunda mübarizəyə başladığı vaxtlardan Sərkisyan hakimiyyətini müdafiə edən kilsə rəhbərləri onun hakimiyyətə gəlişi ilə bir müddət sakit dayansalar da, İkinci Qarabağ savaşından sonra Paşinyan əleyhinə açıq mübarizəyə start verdilər. Səbəb təbii ki, Rusiyadan və eləcə də ayrı-ayrı ölkələrdə diaspor təşkilatlarından gələn sifarişlə bağlıdır. Rusiyanın "5-ci kolon"u qismində çıxış edən müxaliflərin geniş kütlələr tərəfindən dəstəklənməməsi Rusiyanı kilsəni proseslərə qatmağa məcbur etdiyi kimi, müharibədəki məğlubiyyəti həzm edə bilməyən bir sıra ölkələrdəki diaspor təşkilatları da kilsə vasitəsilə Paşinyana qarşı hücuma keçiblər. Paşinyanın sülhlə bağlı bəyanatlarını Ermənistanın milli maraqlarının satılması kimi təqdim edən siyasi müxalifət də kilsə ilə birləşərək hər fürsətdə Paşinyan hakimiyyətinin mövqelərini zəifləmək, ictimai dəstəyini azaltmaq üçün müxtəlif addımlara əl atır. O vaxt Baqrat Qalstanyan da məhz II Qareginin xeyir-duası ilə proseslərə qoşulduğu hər kəs tərəfindən qəbul olunan həqiqətdir".

**Politoloq qeyd etdi ki, kilsənin bütün cəbalarına baxmayaraq Paşinyan hakimiyyəti əleyhinə geniş kütləni səfərbər etmək mümkün olmadı. Amma erməni ictimai şüurunda kilsə xüsusi yer tutur ki, Paşinyan da bunu kifayət qədər yaxşı bilir:** "Qarşıdan vacib seçki gəldiyindən kilsə ilə haqq-hesabı çürütmək Paşinyan üçün olduqca vacibdir. Əgər kilsəni proseslərdə neytrallaşdırmaq mümkün olsa, o zaman müxalifət üzərində qələbə də daha rahat şəkildə təmin oluna bilər. Odur ki, Paşinyanın II Qareginə qarşı mövqeyinə qarşıdakı seçkilərdə özünün əsas müxalifətini neytrallaşdırmaq və eləcə də ondan sonrakı dövrdə atılacaq addımlara (buraya sülh gündəliyi də aiddir) yol açmaq cəhdi kimi baxmaq lazımdır. Paşinyanın bu mövqeyi təbii ki, həm daxili siyasi auditoriyaya, həm də kilsənin xarici havadarlarına ünvanlanmış mesaj xarakteri daşıyır. Kilsənin neytrallaşdırılması istiqamətində fəaliyyətin nə qədər uğurlu olacağını zaman göstərəcək. Amma bu prosesdə etirazçıların həbsi də daxil olmaqla, bütün mümkün vasitələrdən istifadə ediləcəyi şübhəsizdir. Bu təbii ki, Ermənistan daxilində müəyyən qarşıdurmaya da yol aça bilər".

**Y.Bağırzadənin fikrincə, əgər Paşinyan kilsəni neytrallaşdırmağa və qarşıdakı seçkilərdə qalib gəlməyə müvəffəq olacaqsa, o zaman Rusiyadan gələn təzyiqlərə davam gətirə biləcək:** "Bunun tək yolu isə Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılmasından, Ermənistanın regional layihələrdə iştirak imkanı əldə etməsindən keçir. Bunun üçün də sülh sazişi Ermənistanın yeganə çıxış yoludur".

**Politoloq Elxan Şahinoğlu isə bildirib ki, II Qareginin övladının olduğunu ya Ermənistanın kəşfiyyat strukturları Paşinyana veriblər, ya da bunun arxasında xarici ölkə kəşfiyyat stukturlarından biri dayanır:** "Söhbət o ölkələrin kəşfiyyat strukturlarından gedir ki, Nikol Paşinyanın hakimiyyətini itirməsini və Ermənistanda Rusiyaya bağlı güclərin hakimiyyətə gəlməsini istəmirlər. Nikol Paşinyan II Qareginlə yanaşı, keçmiş prezident Robert Köçəryanın üzərinə də getməyə başlayaraq, onun korrupsiya əməllərini faş edə biləcəyi xəbərdarlığını edib. Paşinyan bu məlumatlar əsasında parlament seçkisi öncəsində rəqiblərini əzib keçməyə çalışacaq".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 100 (8710) 12 iyun 2025

# İranın bitməyən Zəngəzur xofu - Xamneyinin adamı nəyin mesajını verir?

## Sabiq nazir: "Sizin ipinizin üzərinə odun yığmaq çox riskli və təhlükəlidir"




**İranın dini lideri Əli Xamneyinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti bildirib ki, İran Zəngəzur dəhlizi yaratmaq cəhdinin qarşısını alıb. Bu barədə "Tasnim" agentliyi məlumat yayıb.**

Onun iddiasına görə, İran heç vaxt indiki qədər güclü, müstəqil və nüfuzlu olmayıb: "Bu gücün bariz əlamətlərindən biri də İranın Cənubi Qafqaz regionundakı böhrana tez və qətiyyətlə reaksiya verməsi idi".

**Vilayəti həmçinin bildirib:** "Bəzi ölkələr Zəngəzur dəhlizinin yaradılması bəhanəsi ilə Naxçıvanı Azərbaycanla Ermənistan ərazisi ilə birləşdirməyə cəhd edəndə - mahiyyətcə bu layihə İran dəhlizinin Avropaya bağlanmasının qarşısını almaq idi - İran İslam Respublikası bu plana qarşı çıxdı və onun həyata keçirilməsinə mane oldu".

Onun sözlərinə görə, Cozef Baydenin özü də guya ABŞ prezidenti vəzifəsində olarkən dəhlizin işə salınması üçün hər şeyin hazır olduğunu etiraf edib, lakin bu layihənin həyata keçirilməsinə mane İran olub.

Vilayəti daha sonra vurğulayıb ki, Zəngəzur dəhlizinin son məqsədi təkcə İranı şimal istiqamətindən kəsmək deyil, həm də cənubdan Rusiya ətrafındakı halqanı mühasirəyə alıb bağlamaqdır.

Xamneyinin müşavirinin lovğalıqla dolu açıqlamasından belə qənaətə gəlmək olarmı ki, Zəngəzur dəhlizi məsələsi artıq bitib? Pekindən Londonadək uzanacaq Orta dəhliz layihəsinin bir hissəsi sayılan Zəngəzur dəhlizinin açılmasının birdəfəlik qarşısını almaq İranın gücündə olan bir məsələdirmi?

Bəllidir ki, Ermənistan Azərbaycandan-Azərbaycana keçidə razı olduğunu bəyan edir, sadəcə, yola nəzarət üstündə mübahisə qalmaqdadır, o halda İran liderinin müşaviri o nəticəyə necə gəlib ki, Zəngəzur dəhlizinin açılması mümkün olmayacaq? Madam ki, İran açıq mövqe sərgiləyir, bundan sonra Azərbaycanın diplomatik addımları necə olmalıdır?

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə şərhçi Fikrət Yusifov** "Yeni Müsavat"da qeyd etdi ki, İran rəsmilərinin Zəngəzur dəhlizi ilə bağlı verdikləri bəyanatlar siyasi sərsəmləmədir: "Görünən budur ki, molla rejimi hakimiyyətdə rəsmilərin fəaliyyətini normal əlaqələndirə bilmir. Adamdan soruşarlar, sizin "Zəngəzur dəhlizi bizim qırmızı xəttimizdir" dediyiniz nədir, Araz çayı üzərindən Zəngəzur dəhlizinin bir qanadının çəkilməsinə dair Azərbaycanın təklifini bəh-bəhlə qəbul etməyiniz nə? Bu razılaşma təşəbbüsü ortaya çıxan kimi iç üzünüz açıldı - qırmızı xəttiniz yadınızdan çıxdı. Zəngəzur dəhlizi ətrafında yol verdiyiniz sərsəmləmələr bir daha onu sübut edir ki, qonşularınızla münasibətlərdə səmimi ola bilmirsiniz. Əgər səmimi olsaydınız, dəhlizlə bağlı razılaşma əldə edildikdən sonra dilinizə belə sözlər gətirməzdiniz. Bir sözlə, sizin ipinizin üzərinə odun yığmaq çox riskli və təhlükəlidir. Bilin və agah olun, nə qədər çaba göstərsəniz də Zəngəzur dəhlizi mütləq açılacaq. Bir qədər də yanlışlara yol versəniz, dəhlizin İran üzərindən gedəcək xəttini təhlükəyə atmış olacaqsınız. İndi guya Zəngəzura Avropaya çıxış ərazisi kimi baxırsınız və oradan keçəcək dəhlizin sizin yolunuzu kəsəcəyini iddia edirsiniz. Bəs əgər keçən əsrin iyirminci illərində Sovet İttifaqının axmaq idarəçilərinin sərsəm qərarı ilə Zəngəzur Ermənistana verilməsəydi, onda Avropaya yolunuz haradan olacaqdı? Təbii ki, Azərbaycandan. O səbəbdən ağıllı olun! Sizinlə səmimi davranan qonşunuzla kirli oyunlar oynamağa qalxmayın. Onsuz da sivil dünya sizi təkləyib. Bu sıxıntılar içində özünüzə yeni bir quyu da qazmayın".

**AMİP sədrinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev bu dəhlizin açıqlamasında iki tərəfin daha maraqlı olduğunu bildirdi:** "Zəngəzur dəhlizinin açılmasının uzanmasının səbəbi İran rəsmisinin dediyi kimi, onlar deyil. Ümumiyyətlə, bu dəhlizin açılmasında maraqlı olan əsas iki tərəf var: Rusiya və Qərb. Amma hər ikisi bu dəhlizə nəzarəti özü həyata keçirmək istəyir. İran isə ilk gündən bu dəhlizin açılmasını istəməyib. Amma onun istəyib-istəməməsindən asılı olmayaraq, dəhlizin açılması məsələsi reallaşanda hər hansı təsir imkanları olmayacaq. Necə ki, bu günə qədər olmayıb. İran rəsmisi verdiyi bəyanatla demək istəyib ki, regionun əsas söz sahibi İrandır və onun razılığı olmadan regionda hər hansı böyük lahiyələr həyata keçirilə bilməz. Bu isə əslində İranın Cənubi Qafqazda baş verən proseslərə, ümumiyyətlə, təsir imkanlarının olmamasını gizlətməyə hesablanmış bəyanatdır. Dediyim kimi, Rusiya və Qərb arasında bu məsələ ətrafında fikir ayrılığı mövcuddur. Ermənistan isə bundan istifadə etməklə dəhlizin açılmasını uzadır. Çünki prosesin bu şəkildə olması rəsmi İrəvana hələlik sərf edir. Düşünür ki, hadisələrin bu cür inkişafı Azərbaycanın daha çox güzəştlər əldə etməsinə gətirib çıxara bilər. Yəni əslində Ermənistanı dəhlizin açılmasına inandırsaq, yaxud buna məcbur etsək, rahatlıqla bu kommunikasiya xəttini açacaq. Nəinki İran, digər maraqlı dövlətlərin fikirlərinə də əhəmiyyət verməyəcək. Düşünürəm ki, gec-tez Azərbaycan Ermənistanı bu addımı atmağa məcbur edəcək. Çünki ikitərəfli razılaşmalara görə, bu dəhlizin açılmasından Ermənistanın qazanacağı vasitəçilərlə qazanacağından istər siyasi, istərsə də maddi cəhətdən daha çoxdur. Odur ki, İrandan verilən bəyanatı regionda özünü təsdiq cəhdi kimi dəyərləndirirəm. Hesab edirəm ki, bu da çox uğursuzdur. Amma eyni zamanda onun dəhlizlə bağlı bu fikirdə olmasını da ciddi qəbul etmək lazımdır. Bu bir daha təsdiq edir ki, İranın Azərbaycana olan münasibəti heç zaman səmimi olmayıb. Hazırda sanksiyalardan dolayı əziyyət çəkən, son vaxtlar uranın zənginləşdirilməsi ilə bağlı yenidən hədəfdə olan İranın qonşuları ilə daha səmimi münasibət saxlaması lazım idi. Amma seçimi İran edib. Azərbaycan bir daha əmin olmalıdır ki, İranla münasibətlərimizdə bəzi hallarda vitrində olan "səmimi" münasibətlərin arxasında tamam fərqli münasibət dayanır. O səbəbdən dövlətlərarası əlaqələrdə bu faktoru açıq şəkildə qarşı tərəfə demək lazımdır və Azərbaycan da öz növbəsində münasibətləri qonşuluq prinsipindən daha çox dövlətimizə olan münasibətə görə qurmalıdır".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"




# Daha bir türk ölkəsi ilə Rusiya arasında gərginlik

## Moskva indi də özbək miqrantları sıxışdırmağa başlayıb; rəsmi Daşkənd nota göndərdi - Kremlin niyyəti nə?

**Özbəkistan və Rusiya arasında gərginlik yaranıb. Rəsmi Daşkənd Rusiya ərazisində ölkə vətəndaşlarına qarşı əsassız yoxlamalar, hörmətsiz və kobud rəftar halları ilə bağlı narahatlığını ifadə edib. "Yeni Müsavat" xəbər verir ki, bu barədə Özbəkistan XİN-in mətbuat katibi Ahror Burxanov Telegramda bildirib.**

Onun sözlərinə görə, Özbəkistanın Moskvadakı səfirliyi Rusiya XİN-ə nota göndərib və burada vətəndaşların qanunsuz yoxlamalar, hörmətsizlik və kobud münasibətlə bağlı şikayətləri ilə əlaqədar narahatlıq ifadə edilib. Burxanov vurğulayıb ki, belə hallar ölkələrimiz arasındakı dostluq münasibətlərinə uyğun deyil və bunları qabaqlamaq üçün konkret tədbirlər görülməlidir.

Rusiya son aylar Orta Asiya ölkələrindən olan miqrantları sıxışdırır. Bundan əvvəl də Tacikistan vətəndaşlarına təzyiq göstərilir, əsassız yoxlamalar aparılırdı. Hətta rəsmi Düşənbə bununla bağlı Moskvaya etiraz məktubu göndərmişdi. Hər şey isə "Krokus siti holl" konsert zalında törədilən terrordan sonra başlayıb. İŞİD üzvü olan Tacikistan vətəndaşlarının bu cinayətinin ardınca Rusiya Mərkəzi Asiya dövlətlərinin vətəndaşlarına basqıları artırıb. İndisə özbək miqrantları sıxma-boğma etməkdədirlər. Ümumiyyətlə, Rusiya türkdilli ölkələrə, bütövlükdə postsovet respublikalarına qarşı yeni təzyiq dalğasına start verib. Ukrayna cəbhəsində ilişən və ciddi uğursuzluğa düçar olan Kreml rəhbərliyinin hirsini sağa-sola həmlələr etməklə çıxmağa cəhd etməsi onun isterik vəziyyətini ifadə edir.

Yada salaq ki, bu ilin aprelində Özbəkistanda səfərdə olan Rusiyanın xarici işlər naziri Sergey Lavrov Səmərqənddəki "Yaslı ana" abidəsinin üzərində rusca yazıların olmamasına diqqət çəkmişdi. Özbək ictimaiyyəti onun sözlərinə kəskin reaksiya vermişdi. ABŞ Müdafiə Nazirliyinin Hərbi Kəşfiyyat Agentliyinin (DIA) son hesabatına görə, Rusiya postsovet məkanında, xüsusilə Cənubi Qafqaz və Mərkəzi Asiyada nüfuzunu yenidən gücləndirmək istiqamətində mühüm addımlar atır. Moskva bu regionlarda siyasi, iqtisadi və informasiya rıçaqlarından istifadə edərək öz təsir dairəsini genişləndirir.

**Professor Qabil Hüseynlinin** "Yeni Müsavat"a bildirdiyinə görə, Rusiya qəzəbindən dodaqlarını çeynəyir. Onun fikrincə, Ukraynadakı uğursuzluq sindromu Rusiyanın strateji mövqelərinin sarsılmasına səbəb olur: "İndi də Özbəkistanı təhdid etməyə başlayıblar. Rusiyaya elə gəlir ki, Mərkəzi Asiya dövlətlərini əvvəlkitək öz orbitində saxlamaq iqtidarındadır. Bəli, onun Özbəkistanda da ara qarışdırmaq, daxildə təxribat ocaqları yaratmaq üçün əlində rıçaqları var, amma təsir imkanları getdikcə azalır. Özbəkistan inkişafda olan ölkədir. Bu templə özbək miqrantların Rusiyaya işləmək üçün getməyə ehtiyacı da qalmayacaq. Çünki daxildə inkişaf asılılığı azaldacaq".

**Q.Hüseynli özbək miqrantlarla yanaşı digər ölkələrdən olan işçi qüvvəsinə də ciddi təzyiqlər olduğunu düşünür:** "Bu günlərdə Moskvadakı bazarların birinə silahla daxil olan şəxslər azərbaycanlıları, qeyri-rusları hədələmişdilər. Demişdilər ki, onlara burada yaşamaq, işləmək olmaz. Bu da Rusiyada şovinizmin getdikcə güclənməsinin nəticələridir. Ümumiyyətlə, Rusiya prezidentinin imzaladığı fərmanla miqrantlarla bağlı qaydalar sərtləşdirilib. Bu ayın 30-dan Rusiyaya giriş qaydaları dəyişir. Yəni pasport yoxlanışı ciddiləşdirilir. Moskva bu addımlarını təhlükəsizliklə əlaqələndirir, amma məqsəd həm də postsovet ölkələrinə, xalqlarına təzyiq göstərməkdir".

Qeyd edək ki, iyunun 30-dan Rusiya ölkəyə giriş qaydalarını sərtləşdirəcək. Rusiyaya giriş zamanı barmaq izlərini verməli və şəkil çəkdirməli olacaqsınız. Elektron viza layihəsi Rusiyada 2023-cü il avqustun 1-dən başlayıb. O vaxtdan etibarən əcnəbilər turizm, biznes, humanitar məqsədlər və ya qonaq səfərləri üçün vizaya müraciət edə bilərlər. İndi də Rusiyada əmək miqrantlarını ölkə ərazisinə daxil olarkən depozit qoymağa məcbur etmək təklif olunur. Rusiya Dövlət Dumasının "Yeni İnsanlar" fraksiyasının deputatları bu təklifin yer aldığı məktubu daxili işlər naziri Vladimir Kolokoltsevə göndəriblər. Təklifə əsasən, əmək miqrantları Rusiya ərazisində qanunvericiliyi pozduqları təqdirdə, öncədən qoyduqları depozit onların deportasiya xərclərini qarşılamaq üçün istifadə olunacaq.

❑ EMİL,
"Yeni Müsavat"

Yeni Müsavat
N 100 (8710) 12 iyun 2025



# Sehrbazın ac qalmağı

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud xaosun mükafatsız buraxdığı alim

**Deyir, Macarıstan millisi ilə futbol oyunumuzu izləmək üçün Abşerondakı stadiona 2500 tamaşaçı gəlibmiş. Təşəkkür düşür. Əsl azarkeş bunlardır - yeni milli komandanın azarlıları, xəstələri. Hələ ümidini itirməyən 2500 nəfər varmış. Bizi yaşadan onlardır.**

Oyunun qısa videosunu izlədim, həmin azarkeşlərin stadionda yerləşmə forması xoşuma gəldi. Bilmirəm, bunu rəhbərlik belə nəzərdə tutub, yoxsa bileti elə satıblar: tamaşaçılar adda-budda şəkildə bütün tribunalara yayılmışdılar, nəticədə boşluq görünmürdü. Yalan olmasın, Marakana, Uembli-zad kimi bir şey idi. Təyyarədə sərnişinləri də bu prinsiplə yerləşdirirlər ki, ağırlıq mərkəzi pozulmasın. AFFA və Santuş müəllimin sayəsində milli komandamız uçuşa hazırlaşır. Ya da artıq uçuruq.

Əslində oyun maraqlı idi, hətta axırda qapıçımız az qala qol vurmuşdu, görünür, hücumçulardan bir şey çıxmayacağını bilir. Santuş müəllim də həmişə bunu qeyd edir, deyir, təhlükəli epizod yaradırıq, bəsinizdir.

Həqiqətən, bizə epizod bəsdir. Bu, təxminən kino çəkmək kimi bir şeydir. Epizodlardan başlamaq yerinə, böyük kinoya girişmişik, nəticə alınmır. Örnək üçün, Vaqif Mustafayev vaxtilə "Mozalan" süjetləri çəkirdi, ləzzətlə baxırdıq. İndi "Həyat, deyəsən, gözəldir" adında necə bir cəfəngiyyat çəkibsə, ik-üç ildir həm ona pul ayıran hökumət, həm bu "kinoya" baxan xalq çaşıb qalıb, bilmirik gülək, ya ağlayaq.

Bəzi vətəndaşları ümumiyyətlə anlamaq çətindir. Keçən ildən Bakı sirkinin binasını remonta bağlayıblar, işçiləri isə öz hesablarına məzuniyyətə göndəriblər. Təzəlikcə onlardan bir neçəsinin şikayəti çıxmışdı. Deyirlər, dolana bilmirik, nazirlik (mədəniyyət) bizə baxmır və sairə.

Əcaib vəziyyətdir. Bütün ölkədə faktiki sirkdir, ancaq sirkin artisti acından ölür. İndi bunu necə izah edəsən? Çətindir. Hələ siz bu artistlərin ixtisasına baxsanız, lap çaş-baş qalarsınız. Məsələn, kloun ac qalsa, başa düşərəm, camaatın uşağı da tülküləşib, daha klounla əylənmək istəmirlər. Şikayət edənlər sehrbaz, gimnast və pəhləvan idi!

Lap gimnastı birtəhər yola verək, deyək, yaxşı gimnastı el dolandırmalıdır, bəs sehrbaza nə söz? Bütün dünyada camaat sehrbazın hesabına yaşayır, bizimki dilənçilik edir. Qardaşım, bir dənə fokus göstər, pul papaqdan zibil kimi çıxsın. Ya da sənə yaşamağa imkan verməyən nazirlik əməkdaşını qutuya sal, mişarla. Həmçinin, yoxa çıxarda bilərsən, etiraz etmirik. Yoxsa bu nə əfəllik, bu nə ağlaşma-şivəndir?

Hələ o pəhləvan məni lap dilxor edibdir. Rəhmətliyin oğlu, sənin qolunda o boyda güc var, tayların mıxı əyir, pudluq daşları fındıq kimi oynadır, üstündən maşın keçir və sairə. Ölmürlər ki? Əksinə, xalqı əyləndirirlər. Bu isə maaş istəyir. Tamaşa göstərmədən. Dövlətçilik prinsiplərinə görə ya tamaşa olmalıdır, ya kökə, ya da qamçı. Ayrılıqda. Üçü birində yalnız ucuz qəhvədə olur, türkün sözü.

Ancaq keçən ay oxuduğum bir xəbər öz unikallığı ilə bunların hamısından üstündür. Bir alim dövlət başçısına şikayət yazmışdı, deyir, Elm və Təhsil Nazirliyi elmi mükafatlar proqramından mənə pul vermir. Bəs onun məşğul olduğu sahə nədir? Buyurun, öz məktubundan oxuyaq: "Elmi fəaliyyətim dünya elminin ən aktual istiqamətlərindən biri olan xaosun idarə olunmasına həsr edilib".

Xaosu idarə eləməyi bilir, ancaq nazirlikdən pul ala bilmir. Ya da nazirlik düz edir, pul vermir, sənin alimliyin fufulodur. Əks halda, qorxub çəkinərdilər: "Birdən müəllim əsəbləşib xaos yaradar, pulunu ödəyək, rədd olsun"...



# Kremlin Qarabağ üzərindən şok bazarlıq təklifi - reaksiya

## Putinin köməkçisinin işğaldan azad olunan torpaqlarımızı "mübahisəli ərazi" adlandırmasının arxasındakı məkrli niyyət üzə çıxdı; Bakı Krımı və 4 regionu "Yeni Rusiya" kimi tanıyacaqmı?

**Rusiya prezidentinin köməkçisi Vladimir Medinskinin Qarabağla bağlı bəyanatına Azərbaycan Xarici İşlər Nazirliyinin reaksiyası ilə əlaqədar Moskva Bakının Rusiyanın yeni regionları və Krımı tanımasına ümid edir.**

Bu barədə "RİA Novosti"yə məlumatlı mənbə bildirib. "Azərbaycan Xarici İşlər Nazirliyinin Rusiya prezidentinin köməkçisi Vladimir Medinskinin Qarabağla bağlı bəyanatlarına reaksiyası ilə əlaqədar Moskva gözləyir ki, Bakı 22 fevral 2022-ci il tarixli Moskva Bəyannaməsində ən yüksək səviyyədə təsbit olunmuş Rusiya ilə Azərbaycan arasında münasibətlərin müttəfiqlik xarakterini nəzərə alıb, Ukrayna ətrafındakı vəziyyətdə daha balanslı mövqe tutub, xüsusi hərbi əməliyyat kontekstində Rusiyanın yanaşmalarının ədalətli olduğunu və Krım, Sevastopol, "dxr", "lxr", Zaporojye, eləcə də Xerson vilayətlərinin ölkəmizin tərkibində olması ilə bağlı mövqeyi tanıyacaq. Necə ki, Rusiya Azərbaycanın Qarabağ üzərində suverenliyini şübhə altına almır", - mənbə bildirib.

Bu nədir - Rusiyanın Azərbaycana Qarabağ üzərindən siyasi bazarlıq təklifi, yoxsa Bakıya gözlənilən təzyiq barədə xəbərdarlıq? Azərbaycan Ukraynanın ərazi bütövlüyü məsələsində prinsipial mövqeyinə davam edərsə, Moskva bizim ərazi bütövlüyümüzü şübhə altına alacaqmı?

Azərbaycan uzun illər işğaldan əziyyət çəkən ölkə kimi işğalı, işğalçını necə dəstəkləyə bilər? Nəhayət, 22 fevral 2022-ci il tarixli Moskva Bəyannaməsinin Ukraynaya, işğal edilən bölgələrə nə dəxli? Burada böyük bir yanlışlıq və minnət var. Yəni Rusiya Qarabağın Azərbaycana aid olduğunu təsdiqləyirsə, Azərbaycan da bir "jest" etməlidir. Ancaq BMT-nin qərarları, beynəlxalq hüquq var və Krım, həmin 4 region Ukraynanın ərazi bütövlüyünə daxildir. Azərbaycan bu ərazilərin Rusiyanın suveren torpaqları kimi tanımış olsa, bununla həm beynəlxalq hüquqa, həm özünə qarşı getmiş olacaq. Yəni vaxtilə işğala məruz qalmış ölkə kimi ədalət hissini itirməli, işğalçıya dəstək verməliyik.

Ümumiyyətlə, Rusiyanın dövlət agentliyinin "məlumatlı mənbə" kimi təqdim etdiyi mötəbər qaynağın əslində Kreml sarayındakı dairələr olduğu şübhə doğurmur. Bu informasiya orada emal və istehsal olunub, sonra "Ria-Novosti"yə ötürülüb ki, yaysınlar. Və bu xəbərin dərc olunması elə vaxta təsadüf edir ki, bir yandan Medinski Qarabağı "mübahisəli ərazi" adlandırır, bir tərəfdən XİN rəsmisi Zaxarova Rusiyanın Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını rəsmən bəyan edir.

Lakin Azərbaycanın belə bir bazarlığa gedəcəyi gözlənilmir. Rəsmi Bakının mövqeyi beynəlxalq hüquqa söykənir - ilhaq və işğal olunmuş ərazilər Ukraynanın suveren torpaqlarıdır. Bundan əlavə, Azərbaycan işğaldan əziyyət çəkən ölkəyə hər zaman humanitar yardım edir. Sadəcə, nə sanksiyalara qoşulmuşuq, nə Kiyevə hərbi yardım edirik. Moskvanın bu faktorları nəzərə alması olduqca vacibdir. Təəssüf ki, Rusiya hakimiyyəti hələ də Azərbaycana qarşı qeyri-müəyyən, ikibaşlı, latent bir siyasət yürüdür. Bunun növbəti elementi də "Ria-Novosti"nin yaydığı məlumat oldu.

**Analitik Elxan Şahinoğlunun sözlərinə görə, Rusiyanın "RİA Novosti" agentliyinin "Moskva Bakının Rusiyanın yeni regionlarını və Krımı tanımasına ümid edir" xəbəri Kreml sahibinin köməkçisi Vladimir Medinskinin son müsahibəsində Qarabağı "mübahisəli ərazi" kimi adlandırmasının təsadüfi, yəni dil sürüşməsi olmadığını göstərir:** "Rusiyanın dövlət agentliyinin bu xəbəri adının çəkilməsini istəməyən mənbəyə istinadən yayılıb. Həmin mənbənin Kremldən olduğu aşkardır. Kremlin "RİA Novosti" vasitəsilə Bakıya göndərdiyi mesajı belə oxumaq lazımdır: "Azərbaycanın Rusiyanın Ukraynadan qopardığı bölgələri, o cümlədən Krımı Rusiya ərazisi kimi tanımasını istəyirik". Ötən ilin dekabrında Rusiya səmasında Azərbaycanın mülki təyyarəsini raketlə vurduğuna və vətəndaşlarımızı öldürdüyünə görə Azərbaycandan üzr istəməyən, günahkarları cəzalandırmayan Kreml hələ bizdən Ukraynanın işğalını tanımamızı istəyir. Bu heç zaman mümkün olmayacaq".

**Onun fikrincə, belə olan halda Kremldən və rusiyalı rəsmilərdən, deputatlardan, diplomatlardan Azərbaycana münasibətdə əvvəlkitək təxribatlar gözləməliyik:** "Maraqlıdır, Kreml bu "istəyini" ilk dəfə Azərbaycanın adını çəkərək səsləndirib. Kreml eyni istəyinin yerinə yetirilməsini strateji tərəfdaş adlandırdığı dövlətlərdən, o cümlədən Çindən də gözləyirmi? Kreml Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avrasiya İqtisadi Birliyi üzvlərindən də Krımı Rusiya ərazisi kimi tanımasını istəyirmi? Başqalarını bilmirəm, Azərbaycan Xarici İşlər Nazirliyi "RİA Novosti"nin təxribatçı xəbərini cavabsız qoymamalıdır".

**Siyasi təhlilçi Asif Nərimanlı da belə hesab edir ki, "RİA Novosti"nin "Rusiya Azərbaycanın Krımı və yeni regionları (Ukraynanın işğal edilmiş digər əraziləri) tanımasına ümid edir" xəbəri ilə Moskva, nəhayət, Bakıdan nə istədiyini elan etdi. Onun qənaətinə görə, mümkündür ki, bu istək kulis diplomatiyasında daha öncədən dilə gətirilib və AZAL təyyarəsinin vurulmasından sonra Bakı-Moskva xəttində yaranmış narazılığın davam etməsindəki motivlərindən biri də bu ola bilər:** "Bakıdan müsbət cavab ala bilməyən Kreml isə həm Medinskinin "Qarabağı mübahisəli" ərazi adlandırması, həm də Krım istəyini ictimaiyyətləşdirməklə mesaj verir. Rusiya başqa ölkədən yox, niyə məhz Azərbaycandan bunu açıq şəkildə istəyir?

İstisna deyil ki, Moskva Bakının tələblərini - mövcud situasiyada bunun AZAL-ın vurulan təyyarəsi ilə bağlı olmasından başqa versiya görünmür - yerinə yetirmək üçün şərt kimi Krım istəyini irəli sürür, Bakıda qəbul edilməyəcəyini bildikləri halda. Və bununla tələblərdən yayınmaq gedişi edir".

**Siyasi şərhçi Azərbaycanın Rusiyanın bu istəyini qəbul etməyəcəyinə əmindir:** "Bu yalnız o halda müzakirə edilə bilər ki, Ukrayna Krımı və digər işğal edilmiş əraziləri Rusiya ərazisi kimi tanısın və beynəlxalq hüquqda qəbul olunsun. Perspektivdə bu ssenarinin mümkünlüyü görünmür. Bu halda Moskvanın Bakıya qarşı təxribat xarakterli müxtəlif açıqlamaları və addımları gözlənilməkdir".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 100 (8710) 12 iyun 2025

# Atası azərbaycanlı olan Xocalı canisi həbsin bir addımlığında

## Ermənistanın baş prokuroru spikerdən keçmiş müdafiə naziri Seyran Ohanyanın qandallanmasına razılıq verməyi xahiş edib; onu dəmir barmaqlıqlar arxasında görmək xoş mənzərə olacaq...

**Ermənistanın baş prokuroru Anna Vardapetyan parlamentin sədri Alen Simonyandan "Hayastan" deputat fraksiyasının rəhbəri, Xocalı canilərindən olan Seyran Ohanyan və deputat Artsvik Minasyana qarşı cinayət işinin başlanmasına razılıq verməyi xahiş edib.**



Erməni mediasının yazdığına görə, cinayət işi 2010-2015-ci illərdə Sevan Milli Parkına məxsus Qeqarkunik rayonunun Draxtik icmasında 10,5 min kvadratmetr torpaq sahəsinin qanunsuz mənimsənilməsindən gedir. Ohanyan müdafiə naziri işləyərkən bu torpağı mənimsəməkdə və büdcə vəsaiti hesabına malikanə tikməkdə ittiham olunur. Artsik Minasyan isə 2016-2018-ci illərdə təbiəti mühafizə naziri vəzifəsində çalışarkən Ohanyanın hərəkətlərinə hüquqi qiymət verilməsi üçün heç bir tədbir görməyib. Üstəlik, cinayəti gizlətmək üçün bəzi sənədləri saxtalaşdıraraq Ohanyanla əlaqəsi olan şəxslərə tikintiyə icazə verib.

Seyran Ohanyan baş nazir Nikol Paşinyana impiçment elan edəcəyinə söz verib və bu yöndə aktiv çalışır. Artıq Alen Simonyan baş prokurorun xahişinin təmin ediləcəyini bildirib. Təəssüf ki, həbs hədəsi Ohanyanın Azərbaycan xalqına qarşı törətdiyi hərbi cinayətlərlə bağlı deyil. Onun həbsi isə parlamentin radikal müxalifətdən olan üzvlərinin sayını daha da azaldacaq ki, bu da impiçment prosedurunu daha əlçatmaz edəcək.

Bəs Ohanyanın mandatından məhrum edilərək həbsə atılması ehtimalı nə qədərdir?

Ohanyan o hərbi canidir ki, Xocalı genosidinin törədilməsində iştirak edib. Həmçinin Qarabağ işğal altında olduğu dövrdə "Ohanyan xətti" deyilən təmas bölgəsi yaradılmışdı. 44 günlük müharibədə isə qəhrəman Azərbaycan əsgərləri "Ohanyan xətti"ni darmadağın etdilər. Könül istərdi ki, bu hərbi cani də Bakıda mühakimə edilsin. Onun yeri Araik Arutyunyanın, Ruben Vardanyanın, Bako Saakyanın yanıdır. Bununla belə, Ermənistan prokurorluğu onun saxlanması üçün sanksiya verərsə, bütün hallarda onu dəmir barmaqlıqlar arxasında görmək xoş mənzərə olacaq.

Onu da demək lazımdır ki, Ermənistanda iqtidarla revanşistlərin qarşıdurması böyüyür. Hakimiyyət həm kilsə, həm keçmiş "Qarabağ klanı" ilə döyüşməkdədir. Gələn ilin iyununda keçiriləcək parlament seçkiləri ərəfəsində hakimiyyət "ayaq altındakı daşları yığışdırır". Onları istintaq altında saxlamaqla siyasi cəhətdən zərərsizləşdirir. Belələrindən biri də parlamentdə davamlı olaraq hürən Ohanyandır ki, həbsin bir addımlığındadır.

Xatırladaq ki, Azərbaycanın Hərbi Prokurorluğunda istintaq olunan cinayət işi üzrə Ermənistanın keçmiş müdafiə naziri, Xocalı soyqırımının əsas iştirakçısı olan Ohanyan Seyran Muşeqoviçin Cinayət Məcəlləsinin 103-cü (Soyqırım) və 107-ci (Əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsinə dair qərar qəbul edilib.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə** "Yeni Müsavat"a bildirib ki, Azərbaycan tərəfindən Ohanyan barəsində qiyabi həbs-qətimkan tədbiri seçilib. Onun sözlərinə görə, Xocalı canilərindən Köçəryan və Sərkisyan da məsuliyyətə cəlb olunmalıdır: "Belə desək, "Ohanyan xətti" məhv edilib, qalır ohanyanların həbsini həyata keçirmək. Hazırda Ermənistanın onları Azərbaycana verməsi real görünmür. Amma ən azından orada cəza çəkmələri lazımdır. Ohanyanın barəsində ittihama gəlincə, torpaq mənimsəməkdə və büdcə vəsaiti hesabına malikanə tikməkdə ittiham olunur. Yəni burada korrupsiya faktından söhbət gedir. Onun mandatdan məhrum edilərək həbs olunması istisna edilmir. Amma həbs-qətimkan tədbiri seçilmədən də istintaqa cəlb olunması, sonra işin məhkəməyə verilməsi mümkündür. Bu zaman da Ohanyan tez-tez ifadə verməyə çağırılacaq. Fikrimcə, məqsəd onu təzyiq altında saxlamaqdır. Ümumiyyətlə, Ohanyan parlamentdə olduqca aqressivdir, hökuməti ittiham edir. Odur ki, onun ifşası davam etdirilir. Əgər baş pokuror spikerdən bu xahişi edibsə, reallaşması an məsələsidir".

**Hüquq müdafiəçisi qeyd edib ki, Ohanyan korrupsiya əməllərindən daha ağır cinayətlər törədib:** "Onun Azərbaycanda törətdiyi qırğınlar, hərbi cinayətlər əsasında istintaq aparılması daha ədalətli olardı. İstənilən halda, Ohanyan kimilərin "kitabı bağlanıb". Azərbaycan Ordusu onun səddini məhv elədi, özü də bu mənzərənin şahidi oldu, Ermənistanda isə siyasi meyitə çevrilib, heç bir nüfuzu yoxdur, indi də məhkəmə və istintaq qapılarında qalacaq. Bu qüvvələr tamamilə bitib".

Qeyd edək ki, Seyran Ohanyan 1962-ci il, iyulun 1-də Azərbaycanın o vaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Şuşa şəhərində (bəzi mənbələrə görə, Daşaltı kəndində) anadan olub. Onun atasının azərbaycanlı Surxay Mədətov olduğu bilinən faktdır. Amma rəsmi məlumatlarda deyilir ki, atası olmuş Muştaq adlı erməni Ermənistanda - Gorusda anadan olub.

Surxay Mədətovla erməni Aida Ohanyan Şuşadakı təhsil müəssisələrindən birində tanış olublar. 1961-ci ildə onlar ailə həyatı qurublar. 1969-cu ildə Seyranın atası arvadının pozğunluğuna görə Şuşa bazarında onun üzünə kislota atıb. Lakin ölməyib, müalicə olunub sağalıb. Bu hadisəyə görə atası həbs edilib, 3 illik həbsdən çıxandan sonra vərəm xəstəliyindən ölüb. Seyran Ohanyanın bacısı da Şuşada doğulub, Bakıda yaşayıb və məlum hadisələr başlayanda Moskvaya köç edib.

Ohanyan 1969-1979-cu illərdə Şuşada 2 saylı rus məktəbində təhsil alıb. 1979-cu ildə isə 10 illik təhsilinə yekun vuraraq Bakı Ali Hərbi Ümumqoşun məktəbinə qəbul olub. Ohanyan Bakıda hərbi təhsil aldığı illərdə erməni həkim qadınla evlənib. Xidmət illərinə Almaniyada SSRİ birliklərində başlayan Ohanyan sonra Gəncədə dislokasiya olunmuş 23-cü diviziyada hərbi xidmətdə olub. Sonra Xankəndidəki 366-cı motoatıcı alayda bölük komandiri təyinatı alıb.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni separatçılarının Xocalıya hücumu zamanı Seyran Ohanyan 366-cı motoatıcı alayın tərkibində bu qətliamın istirakçılarından olub. 1992-ci ilin sentyabrında Xocavənd döyüşlərində ağır yaralanıb, ayağının birini itirib.

O, Serj Sərkisyanla olan yaxın dostluğu sayəsində Sərkisyan prezident olandan sonra Silahlı Qüvvələrin Baş Qərargah rəisi, sonra isə müdafiə naziri postuna gətirilib. 2008-ci ilin aprelindən 2016-cı ilin oktyabrınadək Ermənistanın müdafiə naziri olub.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**



## Orbandan ilginc anti-Rusiya bəyanatı - Putinə arxa çevirir

### Kreml azsaylı dostlarını da itirir

**"Ukraynadakı müharibə qlobal münaqişəyə çevrilməyəcək. Bunun səbəbi Rusiyanın kifayət qədər zəif olmasıdır". Bu sözləri Macarıstanın baş naziri Viktor Orban Fransa telekanalına müsahibəsində deyib.**

Baş nazir əlavə edib ki, Avropa güclü olmalıdır, çünki ruslar yalnız güc dilini anlayır.

Bəllidir ki, Orban Putinin dost saydığı Avropa liderlərindəndir. Macarıstan Avropa İttifaqında Rusiyaya qarşı bir sıra sanksiyaları əngəlləməyə çalışıb.

Bəs nə baş verib ki, Orban artıq anti-Rusiya mövqeyi sərgiləyir?

**Siyasi şərhçi Heydər Oğuz** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Orbanın indi antı-Rusiya mövqeyi sərgiləməsinə təəccüblənmir: "Məşhur bir aforizmdə deyildiyi kimi, gəmi batanda onu ən tez siçovullar tərk edər. Bu mənada Orbanın hələ mövqe dəyişikliyində bir qədər gecikdiyini də düşünmək olar. Çünki Rusiyanın zəifliyi artıq heç kimə sirr deyil. Hər keçən gün şimal qonşumuz inanılmaz sürprizlərlə qarşılaşır və Avropa dövlətləri onunla müharibəyə hazırlaşırlar. Orbanın bu zamanadək Putinin tərəfində yer alması onun Aİ-dəki mövqeyini də zəiflədir. İş o yerə çatıb ki, Avropa liderləri Orbanı zərərsizləşdirmək üçün veto hüququndan belə məhrum etmək istəyirlər. Macar lider öz pozuculuq fəaliyyətini davam etdirərsə, tamamilə təsirsiz vəziyyətə düşə bilər və ölkəsi Aİ-dən aldığı yardımlardan ümidini kəsməli olar. Sözsüz ki, bütün təsir imkanını itirib əhəmiyyətsiz fiqura çevrilməkdən və nəticədə iqtisadi tənəzzülə uğramaqdan başqa heç bir nəticə əldə etməməkdənsə, Aİ-nin qaçılmaz qərarları ilə razılaşmaq daha rasional və praqmatik addım sayılır. Orban nə qədər Putinin yanında yer alsa da, hər halda, praqmatik liderdir. Üstəlik, onun rusyanlı siyasət yürütməsi Moskvaya məhəbbətdən irəli gəlmirdi. Orban bu mövqeyi ilə əslində Avropa İttifaqı ilə sövdələşmələrə girirdi. Dəfələrlə olub ki, o, Avropa İttifaqından arzuladığı subsidiya və yardımları aldıqdan sonra tətbiq etdiyi vetoları qaldırıb. Görünür, bu dəfə də öz müttəfiqlərindən istədiklərini alıb və Rusiyaya qarşı bəyanat verib. Ən əsası, indi onun daha güclü himayədarı var - ABŞ Prezidenti Donald Tramp. Tramp nə qədər Ukraynaya qarşı mövqe sərgiləsə də, klassik mənada ruspərəst də deyil. Əksinə, "müttəfiqlərini" yalnız öz yanında görməkdən xoşlanır".

**H.Oğuzun sözlərinə görə, Orbanın siyasi reytinqi də əvvəlki vəziyyətdə deyil:** "2010-cu ildə ilk dəfə Macarıstan baş naziri seçilən Orban get-gedə əvvəlki nüfuzunu itirməkdədir. O, bu 15 il ərzində 6 prezident yola salıb. Özü isə hələ də postunu qoruyur. Ancaq Orbanın yürütdüyü siyasət artıq Macarıstanda ciddi problemlərə yol açıb. İqtisadi böhran, inflyasiya, maaşların gecikdirilməsi və s. kimi problemlər Orbanın nüfuzuna zərbə vurub. Onun keçmiş tərəfdarı və partiyasının aparıcı funksioneri Peter Magyar Orbana qarşı cəbhə alıb. Ötən il bir çağırışla 100 mindən çox macarı meydanlara çıxarmağı bacaran Magyar hazırda Orbanın ən ciddi müxalifi sayılır. Üstəlik, növbəti seçkiyə də çox qalmayıb. Gələn il keçiriləcək seçkilərdə Orbanın Magyara uduza biləcəyi Macarıstan ictimai rəyində ciddi şəkildə müzakirə olunur. Məhz bu səbəbdən də Orbanın Aİ-nın sanksiyalarına məruz qalması, onun veto hüququndan və ölkəsinin iqtisadi yardımlardan məhrum edilməsi macar liderin gücünü daha da itirməsinə gətirib çıxara bilər. Odur ki, Aİ-nin dəstəyini qazanmaq və özü barəsində formalaşan imici dəyişdirmək zorundadır. Görünür, onun rus yanlısından Rusiya əleyhidarına çevrilməsində bu nüfuz itkisinin də böyük təsiri var".

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Sensasiya: Rusiya nefti 30 dollara düşə bilər - Bakının gözləntisi

**Ukrayna Rusiya neftinin qiymətinin 30 dollar olmasında israrlıdır. Bu barədə Ukraynanın xarici işlər naziri Andrey Sıbiqanın bəyanatında deyilir.**

Nazirin sözlərinə görə, Kiyev Kanadada bu ay keçiriləcək G7 sammiti zamanı müvafiq qərarların qəbul ediləcəyinə və rəsmiləşdiriləcəyinə ümid etdiyini söyləyib. Sanksiyalar və dondurulmuş aktivlərdən danışan XİN başçısı qeyd edib ki, bundan ötrü “daha çox iradə və qətiyyət lazımdır və bu, Ukraynanın sammitdən gözlədiyi qərarlardan biridir”.

Qeyd edək ki, Rusiyanın enerji sektoruna qarşı sanksiyaların sərtləşdirilməsi Avropa İttifaqının da əsas planlarından biridir. Bu plan Rusiyaya qarşı 18-ci sanksiya paketində əksini tapacaq. İki gün əvvəl Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Lyayen Rusiyaya qarşı planlaşdırılan 18-ci sanksiyalar paketinin Rusiya neftinin qiymətinin aşağı salınmasını və “Şimal axını” qaz kəmərlərinin istifadəsinə qadağa qoyulmasını nəzərdə tutacağı barədə məlumatı təsdiqləyib: “Biz ilk dəfə olaraq "Şimal axını" və “Şimal axını 2" ilə əməliyyatlara qadağa qoyulmasını təklif edirik. Bu o deməkdir ki, heç bir Aİ strukturu bu qaz kəmərləri ilə birbaşa və ya dolayısı ilə hər hansı formada qarşılıqlı əlaqədə ola bilməyəcək. Biz həmçinin neftin qiymətinin bir barel üçün tavanını 60 dollardan 45 dollara endirməyi təklif edirik”.

AK prezidenti qeyd edib ki, AK Rusiya neftinə əsaslanan neft məhsullarının idxalını da qadağan etmək istəyir. Eyni zamanda AK rəhbəri xatırladıb ki, neftin qiymət tavanını aşağı salmaq üçün tədbirlərin tətbiqi təkcə Aİ-nin deyil, həm də G7-nin məsuliyyətidir.

Bundan əvvəl "Financial Times" AK-nin Rusiya neftinin qiymətinin bir barel üçün 60 dollardan 45 dollara endirilməsini təklif etmək niyyəti, həmçinin "Rusiyanın enerji infrastrukturunun, o cümlədən iki "Şimal axını" qaz kəmərinin istifadəsinə qadağa qoyulması" barədə məlumat yaymışdı.

Qeyd edək ki, AK öz təkliflərini açıqladıqdan sonra onlar bütün Aİ ölkələri tərəfindən müzakirə olunacaq. Bu tədbirlərin təsdiqlənməsi üçün blokun bütün üzvlərinin yekdil dəstəyi tələb olunur. Nəşrin məlumatına görə, mənbələr iyulun sonuna kimi yeni paketlə bağlı razılığa gəlməyi gözləyirlər.

İyunun 10-da **Ursula fon der Lyayen** Aİ-nin Rusiyaya qarşı sanksiyaların 18-ci paketində əks etdirmək niyyətində olduğu digər sahələri də açıqlayıb.




Bura neft tankerləri və bank əməliyyatları aiddir: “Biz Rusiyanın "kölgə" donanmasına daxil olan 77 əlavə gəmini sanksiya siyahısına əlavə edirik. Söhbət sanksiyalardan yayınmaq üçün istifadə edilən tankerlərdən gedir". **O, bank sektorunda məhdudlaşdırıcı tədbirlər barədə də məlumat verib:** “Biz bank sektorunu hədəfləyirik, vəsaitlərdən istifadə etmək və əməliyyatların həyata keçirilməsi imkanlarını məhdudlaşdırırıq. Biz SWIFT sistemindən istifadəyə dair mövcud qadağanı əməliyyatlara tam qadağaya dəyişməyi təklif edirik. Eyni zamanda əməliyyatlara bu qadağanı əlavə 22 Rusiya bankına tətbiq etməyi təklif edirik”.

AK prezidenti həmçinin “Rusiyaya qarşı sanksiyalardan yayınma imkanlarını asanlaşdıran üçüncü ölkənin maliyyə operatorları üçün” əməliyyatlara belə qadağanın tətbiqi təklifini açıqlayıb.

Fon der Lyayen Rusiya Birbaşa İnvestisiya Fondunu (RDIF), onun filiallarını və investisiya layihələrini sanksiyalara məruz qalan Rusiya təşkilatları arasında qeyd edib: “Beləliklə, Rusiya iqtisadiyyatının modernləşdirilməsi və sənaye bazasının gücləndirilməsi layihələrinin maliyyələşdirilməsi üçün mühüm kanal ciddi şəkildə məhdudlaşdırılacaq. Üçüncü element: biz həmçinin Rusiya üçün ümumi məbləği 2,5 milyard avrodan çox olan ixrac qadağası təklif edirik. Belə qadağa Rusiya iqtisadiyyatının kritik texnologiyalara və sənaye mallarına çıxışının qarşısını alacaq. Söhbət maşınqayırma, metallar, plastiklər, sənayedə xammal kimi istifadə edilən kimya məhsullarından gedir. Biz həmçinin ikili təyinatlı malların, silah sistemlərinin və digər istehsal texnologiyalarının ixracını məhdudlaşdırırıq. Və nəhayət, biz istəyirik ki, sanksiyalarımız daha yaxşı və daha dəqiq tətbiq olunsun. Bu səbəbdən tranzit qadağasının əhatə dairəsini genişləndirmək qərarına gəldik. Rusiya hərbi sənaye kompleksinə birbaşa və ya dolayı dəstək verən 22 xarici və Rusiya müəssisəsini siyahıya daxil etdik”.

Qeyd edək ki, may ayında Aİ-nin Rusiyaya qarşı qəbul etdiyi 17-ci sanksiya paketində 189 tanker qara siyahıya salınıb. Bu addım nəticəsində mayın 26-dan iyunun 1-dək olan həftə ərzində Rusiya limanlarından neft ixracı 28,6 faiz azalıb. Bu zaman Baltikyanı limanlardan daşımalar 33,2 faiz, Novorossiyskdə 23 faiz, Kozminoda 3,9 faiz azalıb. Beynəlxalq analitiklər bunu məhdudiyyətlərə məruz qalan gəmilərin əvəzlənməsi axtarışı ilə əlaqələndirirlər.

Ekspertlərin fikrincə, yaxın həftələrdə ixrac 10-15 faiz bərpa oluna bilər. Qeyd olunur ki, satıcılar tez bir zamanda alternativ gəmilər tapırlar. Təcrübəni nəzərə almaqla, Rusiya ekspertləri iyun ayında neft tədarüklərinin may ayı səviyyəsində olacağını gözləyirlər. Hətta güman edilir ki, mövsümi tələb və OPEC+ çərçivəsində hasilatın artması səbəbindən iyul ayında ixrac bir qədər yüksək ola bilər.

Lakin bir çox ekspertlərə görə, bu dəfə sanksiyasız tanker tapmaq iki aya qədər vaxt aparacaq. Çünki bu dəfə sığorta şirkətləri də sanksiyalara məruz qalıb. Bu isə müqavilələrin yenidən qeydiyyatı ilə bağlı fasilənin yaranmasına səbəb olacaq.

Bundan əlavə, iyulun 1-dən İsveç və Danimarkada gəmilərin yoxlanılmasının sərtləşdirilməsi əlavə risklər yaradır.

Artıq Macarıstan və Slovakiya Aİ-nin Rusiyaya qarşı 18-ci sanksiya paketinin qəbuluna qarşı çıxdıqlarını açıqlayıblar. Lakin təcrübə göstərir ki, bu iki ölkə sonda sanksiyalarla razılaşmalı olur.

Aİ-nin gözlənilən sanksiyaları, həmçinin son 3 ayda neft bazarında yaranan qiymət konyukturu Rusiya üçün ciddi problemlər yaradır. May ayında Rusiya neftinin orta ixrac qiyməti 52 dollara bərabər olub. Neft gəlirlərinin kəskin azalması fonunda neftin 60 dollarlıq qiyməti ilə hesablanmış Rusiya büdcəsində dəyişiklik qərarına gəlinib. Sanksiyalar altında olan Rusiya üçün ixracı artırmaq problem yaradır. Buna görə də Rusiya hasilatı və ixracı azaltmaqla qiymətləri qaldırmaq istəyir. Lakin Səudiyyə Ərəbistanı OPEK+ çərçivəsində hasilatın daha da azaldılmasına imkan vermir, əksinə, 3 aydır hasilat artımı dəfələrlə sürətləndirilib. "Bloomberg"in yazdığına görə, Ər-Riyad son 3 ildə hasilatı azaltmaqla itirmiş olduğu bazar payını bərpa etmək üçün uzunmüddətli qiymət strategiyasının icrasına başlayıb. Strategiya hasilatı artırmaqla qiymətləri ABŞ şist neft hasilatçıları üçün əlverişsiz hala gətirib, onların bazardan çıxarılmasına hesablanıb. Bu, Rusiya üçün qətiyyən əlverişli deyil. Belə ki, daxili tələbatın azalması fonunda may ayında ən böyük iki alıcıdan biri olan Çin Rusiya neftinin alışını 14 faiz azaldıb. Hindistan da bir neçə gün əvvəl neft idxalı mənbələrini diversifikasiya etmək planını açıqlayıb. Planda OPEK+ iştirakçısı olmayan ölkələrdən, xüsusilə də ABŞ və Qayanadan idxalın artırılması nəzərdə tutulur. Rusiya neftinin alışları qiymət şərtləri əlverişli olana qədər davam etdiriləcək.

Neft qiymətlərinin düşməsi, ixrac imkanlarının azalması fonunda Ukraynadakı işğalçı müharibənin ağır xərcləri Rusiya büdcəsində böyük kəsir yaranmasına gətirib çıxarıb. Rusiya Maliyyə Nazirliyinin hesabatına əsasən, 2025-ci ilin yanvar-may aylarında Rusiya federal büdcəsi 3,393 trilyon rubl və ya ÜDM-in 1,5 faizi həcmində kəsirlə icra edilib. Yanvar-aprel aylarında kəsir 3,225 trilyon rubl və ya ÜDM-in 1,5 faizini təşkil etmişdi. Federal Xəzinədarlığın dərc etdiyi məlumata görə isə 4 ay ərzində federal büdcə kəsiri 2 trilyon 930,8 milyard rubl təşkil edib.

Beləliklə, Maliyyə Nazirliyinin yanvar-aprel ayları üzrə büdcənin icrasına dair məlumatlarına əsasən, may ayında ilkin kəsir təxminən 168 milyard rubl, Xəzinədarlığın məlumatlarına əsasən 462 milyard rubl olub.

Cari ilin büdcə qanununda 1,173 trilyon rubl və ya ÜDM-in 0,5 faizi həcmində kəsir nəzərdə tutulmuşdu. Bu isə o deməkdir ki, kəsir proqnozdan iki dəfəyə yaxın çoxdur. Dövlət Dumasında baxılan büdcə dəyişikliklərində 2025-ci ildə kəsir 3,792 trilyon rubla və ya ÜDM-in 1,7 faizinə qədər artırılıb.

2025-ci ilin yanvar-may aylarında federal büdcənin gəlirləri 3,1 faiz artaraq 14,732 trilyon rubla çatıb. Federal büdcənin qeyri-neft və qaz gəlirləri 10,492 trilyon rubl təşkil edərək, planlaşdırılan səviyyəni bir qədər üstələyib. Neft və qaz gəlirləri isə 14,4 faiz - 4,240 trilyon rubla qədər azalıb. Məlumata əsasən, 2025-ci ilin yanvar-may aylarında federal büdcə xərclərinin həcmi 20,7 faiz artaraq 18,125 trilyon rubla çatıb.

Müxtəlif amillərin təsiri ilə neft bazarında yaranan hazırkı qiymət konyukturu büdcə hesablamaları baxımından Azərbaycan üçün əlverişsizdir. Belə ki, 2025-ci il dövlət büdcəsi neftin 70 dollarlıq qiyməti ilə hesablanıb. İki aydır qiymət bu həddən az aşağıdır. Rusiya neftinin ixracına qadağalar sərtləşdirilərsə, bu, Moskvanın qiymət endirimlərini artırmasına, son nəticədə qlobal neft qiymətlərinin düşməsinə səbəb ola bilər. Bazarın ən böyük oyunçularından biri olan Səudiyyə Ərəbistanının hasilatı sürətlə artırması bu prosesi daha da sürətləndirən amildir...

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 100 (8710) 12 iyun 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki-mənəvi inkişafı

# Azərbaycan uşaqlarını kimlər piyləndirir?

## Günah süni qidalarda, nənə və analardadır

**Məlumatlara görə, Azərbaycanda əhalinin 30 faizindən çoxu piylənmədən əziyyət çəkir. Ölkədə əhali arasında artıq çəkidən azad olmaq üçün dietoloqlara müraciət edənlərin, günün müəyyən vaxtını idmana ayıranların, dieta ilə yeyib-içənlərin sayının artması da qeyd edilənlərin təsdiqi sayıla bilər.**

Amma bu kateqoriyada uşaqlar da xüsusi yer tutur. Belə ki, onlar arasında artıq çəkinin olmasına həyat tərzinin dəyişməsi də təsir edir. İlk növbədə uşaqlara hazır qidaların verilməsi diqqəti çəkən səbəbdir. Mütəxəssislər müəyyən edib ki, hazır qidalar piylənmə səbəblərindən biridir. Əgər bu gün uşağımızı əlimizlə fast-fud satılan restoranlara aparıb onlara bu qidanın üstündən də qazlı şirin içki alıb veririksə, deməli, özümüz öz əlimizlə uşağımızı bəlaya sürükləyirik. Bundan başqa, valideynlərin çoxu uşağa hərəkət etməyə şərait yaratmır. Uşağı sakit, yerində oturmağa alışdırır. Amma uşaq daim hərəkətdə olmalı, yediyi enerjini sərf etməlidir ki, sağlam olsun. Hərəkətsizlik nəticəsində sərf olunmamış enerji uşağın bədənində depolaşır. Qlikogen əzələ və toxumalarda toplanır. Belə uşaqlara paraprofiyalı uşaqlar deyirlər.

Yaddan çıxarmaq olmaz ki, bu gün anadan piylənmə xəstəliyi ilə doğulan, endekrim pozğunluğu olan uşaqlar da var və onların əksəriyyətində piylənmə sonradan hərəkətsiz həyat tərzi, səhv qidalanma nəticəsində baş verir. Araşdırmalar sübut edib ki, uşaqları piylənmədən uzaq tutmağın yolu dinamik həyat tərzindən, düzgün qidalanmadan keçir. Uşağı məktəbə avtomobillə aparıb, avtomobillə gətirib sonrada onu evdə hərəkətsiz saxlamaq ona edilən ən böyük pislik sayılır. Bundan başqa, uşaq günün müəyyən saatlarında oynamalı, fiziki hərəkətdə olmalı, idman etməlidir k, sağlam böyüsün.

Son 40 il ərzində piylənmə əmsalı 10 dəfə artıb, bu isə 124 milyon oğlan və qızın hazırda aşırı kök olduğu deməkdir, yeni tədqiqatın nəticələrində bildirilib. BBC-in araşdırmasına görə, dünyanın 200 ölkəsində kökəlmə tendesiyasını təhlil edən ətraflı hesabatın nəticələri "Lancet"də dərc edilib.

Hesabata görə, Azərbaycanda qızlar arasında piylənmə 4.4 faiz, oğlanlar arasında isə 5.3 faiz təşkil edir. Britaniyada beşyaşlı uşaqdan tutmuş 19 yaşlı gəncədək hər 10 nəfərədən biri kökdür.

Ana və nənələrin uşağı daha çox yedizdirməsi, kök uşağın gələcəkdə daha güclü ola biləcəyi düşüncəsi piylənməyə qapı açır. Dietoloqlar danışır ki, son bir neçə ildə artıq çəkili uşaqlarla daha çox rastlaşırlar. Məsələn, bir sinifdə 20-30 şagirddən 4-5-i artıq çəkili olur. O uşaqlarla danışıb, araşdıranda görürük ki, ailədə zob, şəkər, təzyiq xəstəliyi var. Belə davam edərsə, bu uşaqlar da o xəstəliklərlə mübarizə aparmalı olacaq. Ona görə də, piylənməni uşaq vaxtından aşkarlamaq, üstünə düşmək gələcəkdəki



sağlamlıq problemlərinin qarşısını alır. Sağlam qidalanma bu məsələdə çox vacibdir.

Mütəxəssislərin fikrincə, kök uşaqların böyüyüb yaşlaşanda da kök qalması onların sağlamlığı üçün ciddi risk yaradır. "Lancet" təhlilinin açıqlanması dünyada qeyd olunan Dünya Piylənmə Gününə təsadüf edib. Dünya Piylənmə Federasiyasının qeyd etdiyinə görə, piylənmə səbəbindən əmələ gələn xəstəliklərin müalicəsinə 2025-ci ildən başlayaraq hər il dünya üzrə təxminən 1213 milyard dollar xərclənəcək. Ən yüksək sürətlə uşaqların piylənməsi Şərqi Asiya ölkələrində müşahidə edilir.

Tədqiqatçıların qeyd etdiyinə görə, indiki tendensiya qüvvədə qalsa, yaxın gələcəkdə dünyada köklərin sayı, çəkisi normadan az olanların sayını üstələyəcək. 2000-ci ildə pik səviyyəyə çatdıqdan sonra, çəkisi normadan az olan qız və oğlanların sayı dünyada ildən-ilə azalmağa doğru dəyişir. 2020-cı ildə 192 milyon uşaq və yeniyetmənin çəkisi normadan az olub. Bu, həmin yaşda olan kök uşaqların sayından xeyli çox olsa da, bu sahədə tendensiyanın dəyişdiyi qeyd olunur.

Şərqi Asiya, Latın Amerikası və Karib hövzəsi ölkələrində cəmi bir neçə onillik ərzində uşaqlarda çəki çatışmazlığı problemi piylənmə problemi ilə əvəzlənib. Ümumilikdə isə, dünyada 213 milyon uşaq və yeniyetmənin, hələlik piylənmə həddinə çatmasa da, kök olduğu qeyd olunur.

Maraqlıdır, piylənmə daha çox varlı, yoxsa kasıb ölkələrdə özünü göstərir? Araşdırmalara görə, yüksək gəlirli ölkələrdəki uşaqlarda da piylənmə halları çox yüksəkdir. Bu qrupa daxil olan Birləşmiş Ştatlar kök uşaqların sayına görə ən yuxarı yerdədir. Tədqiqatçılar bu qlobal epidemiyanın səbəbinin ərzaq marketinqi və uğursuz siyasətin nəticəsi olduğunu deyirlər. İnsanların fərdi seçimi olmaqdansa, onlar yeməyi ağır ətraf mühit şəraitində əldə edir. Sağlam yeməklərin qiyməti olduqca yüksəkdir. Sağlam yemək yoxsul təbəqə üçün əlçatmazdır. Qeyri-sağlam ərzaq malları oynamağa yeri olmayan uşaqların çəkisinə təsir edir.

Uşaqlarda özünü göstərən piylənmənin ilk səbəbi heç şübhəsiz ki, ilk altı ay ana südü ilə qidalanmamaqdadır. Bu kateqoriyada olan uşaqlarda piylənmə probleminə daha tez-tez rast gəlinir. Piylənmənin müalicəsinin 70-80 faizi valideynin və pasiyentin, 30 faizi həkimin üzərinə düşür: "Valideynlər övladlarının çəkisini nəzarətdə saxlamalıdırlar. Piylənmə istər böyüklərdə, istərsə də uşaqlarda fizioloji problemlərlə yanaşı, psixoloji problemlərə də yol açır. Piylənmə dövrün xəstəliyidir və müalicəsi də mümkündür. Əgər bu probleme dırnaqarası baxılsa, yorğunluq, yuxusuzluq və ən nəhayət xərçəngə də yol açır. Artıq çəki güc və sağlamlıq göstəricisi deyil, ciddi problemdir".

**Piylənmə bizə gələcəkdə hansı xəstəlikləri bəxş edəcək?**

* Ürək-damar sistemi: qanda yağların artması nəticəsində gənc yaşlarda intfarkt, insult və.s

* Tənəffüs sistemi: gecə yuxuda xoruldama və nəfəs kəsilməsi, ani ölüm.

* Oynaq xəstəlikləri: bədən ağır olduğu üçün diz oynaqlarında deformasiya, sümüklərin əyilməsi və ya qırılması.

* Tip 2 diabet: piylənmədən əziyyət çəkən uşaqlarda insulin rezistentliyi olduğu üçün qanda şəkərin və insulinin yüksəlməsi baş verir. Nəticədə insulin yüksək olduğu üçün iştah artıqlığı meydana çıxır. Bu da çəkinin daha da artmasına səbəb olur.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI**

# Bir milyonluq "qanpulu işi"ndə yenilik

## Müttəhimlər də, zərərçəkənlər də narazıdır

**"Urmedhelp" və "My Doc Tour" şirkətlərinin sahibi Nuridə Seyidova və digər 2 müttəhim Aynur Bayramova və Aysel Məmmədova barələrindəki hökmdən apelyasiya şikayəti veriblər. Aynur Bayramova və Aysel Məmmədova barələrində bəraət hökmünün çıxarılmasını, Nuridə Seyidovanın isə cəzasının yüngülləşdirilməsini xahiş edirlər. Şikayətçilər talassemiyadan əziyyət çəkən uşaqlar üçün toplanmış 1 milyon manata yaxın vəsaiti dələduzluq yolu ilə ələ keçirməkdə təqsirli biliniblər.**



Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin 5 may tarixli hökmü ilə Nuridə Seyidova 8 il 6 ay, Aynur Bayramova 7 il 6 ay, Aysel Məmmədova isə 6 il 6 ay müddətə azadlıqdan məhrum edilib. İttihama görə, talassemiyalı xəstələrin valideynlərinin Daxili İşlər Nazirliyinə müraciətindən sonra 2023-cü ilin fevralında cinayət işi başlanılıb. Müəyyən edilib ki, Nuridə Seyidova digərləri ilə əlbir olaraq 36 talassemiya xəstəsinin valideynlərinin etibarından sui-istifadə edərək həmin şəxslərin övladlarını Türkiyədə müalicə etdirmək adı ilə 1 milyon manata yaxın dələduzluq edib.

Qeyd olunub ki, övladı qan xəstəliyindən əziyyət çəkən bir neçə valideyn Nuridə Seyidovaya ümumilikdə 67 min dollar veriblər. Nuridə Seyidova valideynlərə söz verib ki, sənədlər hazırlanandan sonra azyaşlı xəstələri Türkiyənin Antalya şəhərindəki "Antalya Medical Park" hospitala yollayacaq. Pulu alsa da, vədinə əməl etməyib. Bundan başqa, Nuridə Seyidova yalandan bildirib ki, Şəkinin Cumakənd kənd sakini Vüqar İsayevin talassemiyadan əziyyət çəkən qızı Gülbər İsayevanın ilik transplantasiyası üçün tələb olunan laborator müayinələr, donor xərci, cərrahi əməliyyat və digər xərcləri qarşılamaq üçün tələb olunan pulu sponsorlar ödəyəcəkdilər. Guya əməliyyata 70 min dollar tələb olunub, onun da 20 min dollarını "Çinar Plaza"da ofisdə Nuridə Seyidova ondan alıb, qalan məbləği isə yardım olaraq xaricdəki donor təşkilatlar ödəyəcəyinə vəd edib. Sonra zərərçəkmişə məlum olub ki, ortada nə donor var, nə bir şey.

Digər zərərçəkmiş Tural Nəsmiyev iki azyaşlı övladının müalicəsi üçün 2022-ci ilin mayında Nuridə Seyidovaya 35 min dollar verib. Nuridə Seyidova onun övladlarının Türkiyədəki Samsun şəhərində müalicə olunacağını bildirib. Həmin ilin oktyabrında Türkiyəyə gedib xəstəxanada gözləməyi tapşırıb. Tural Nəsmiyev 3 aydan çox həmin xəstəxanada qalsa da, nə donor, nə də əməliyyat olub. Hər dəfə Nuridə Seyidovayla əlaqə saxlayanda, sonuncu ona səbrli olmağı məsləhət görüb. Nəhayət, aldadıldığını başa düşən Tural Nəsmiyev Türkiyədə keçirdiyi aylar ərzində xərclədiyi 8 min manat ziyanla geri dönüb.

İttiham aktında göstərilib ki, Nuridə Seyidova vətəndaşlardan pulları əsasən "Çinar Plaza"dakı ofisdə alıb. İstintaq zərərçəkən kimi 36 nəfəri müəyyən edib. Bunlar azyaşlı övladları talassemiyadan əziyyət çəkənlərdir. Dəstə üzvləri zərərçəkmişlər Ceyran Musayeva və Elman Nuriyevdən 20 400, Məsumə Hacıyeva, Ömər Məmmədov və Sahid Mövsümovdan 17 000, Mənsur Qarayev, Natiq Qubatov və Elnur İsbəndiyarovdan 25 500, Kəmalə Muliyeva, Nüşabə Məmmədova, Taleh Hacıməmmədov, Şahbacı İsayeva, Xəyal İlmanovdan 34 000 manat məbləğində vəsaiti alaraq dələduzluq ediblər. Nuridə Seyidova öz qulluq mövqeyindən istifadə etməklə Elxan Əliyevdən 12 min 745 manat və Rasim Cavadovdan 25 min 500 manat alaraq onların övladlarını Türkiyədə əməliyyat olunmasına köməklik göstərəcəyi ilə bağlı yalan vəd verib.

Daha sonra Nuridə Seyidova digər təqsirləndirilən Aysel Məmmədova ilə qabaqcadan əlbir olub, Tural Nəsmiyevdən 59 min 500 manat, Zeynəb Cəlilovadan 25 min manat, Kamil Əhmədovdan 23 min manat, Ramin Dadaşovdan 51 min manat, Xəyal İsayevdən 51 min manat, Lamiyə Hüseynovadan 20 min 50 manat, Nərgiz Mahmudovadan 9 min manat, Elnarə Xanmirzəyevadan 25 min manat, Sevinc Səmədovadan 22 min 500 manat, Elvin Fətəliyevdən 25 min manat alıb. O da müəyyən edilib ki, Nuridə Seyidova tanışı Aysel Bayramova ilə əlbir olaraq, Aynur Orucova, Solmaz Eyvazova və Vüqar Eminovdan 25 500, Laura Həsənovadan 51 000, Günay Ağayevadan 25 000, Aytəkin İsayevadan 19 000, Elnaz Hacıyevadan 5 000, Faiq Nəcəfovdan 5 100 manat məbləğində pul alıb.

❑ **Elşən MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 100 (8710) 12 iyun 2025



## ABŞ-ın Bakıdakı konsulluğunun fəaliyyəti ilə bağlı açıqlama - rəsmi

**Ötən gün bir qrup narazı valideyn Musavat.com-a müraciət edərək bildirib ki, bu il ABŞ universitetlərinə qəbul olunan azərbaycanlı abituriyentlər viza ala bilmirlər. Valideynlərin sözlərinə görə, övladları illərlə Amerikada təhsil almaq üçün hazırlaşıb, bütün sənədlərini tamamlayıblar, lakin indi ABŞ-ın Bakıdakı konsulluğu F1 akademik tələbə vizası üçün müraciətlərin qəbulundan imtina edir.**

Sözügedən iddia ilə bağlı Musavat.com ABŞ-ın Azərbaycandakı səfirliyinə sorğu ünvanlayıb.

Səfirliyin mətbuat katibi saytımıza açıqlamasında bildirib ki, konsulluq şöbəsi tam fəaliyyət göstərir və viza müraciətçiləri ərizələrini təqdim etməyə davam edə bilərlər: "Əvvəldən təyin olunmuş heç bir görüş ləğv edilməyib. Görüş vaxtı hələ təyin olunmayan tələbələrə tövsiyə edirik ki, əlavə boş vaxtlar üçün görüş planlaşdırma sistemini izləməyə davam etsinlər. Viza görüşlərinin planlaşdırılması prosesi və viza məlumat xidmətlərindəki son dəyişikliklər də daxil olmaqla, ən son yeniliklərlə tanış olmaq üçün zəhmət olmasa bu sayta daxil olun: Announcements | Official U.S. Department of State Visa Appointment Service | Azerbaijan | English."

❑ Nigar HƏSƏNLİ,
Musavat.com



## Erməni revanşistlər katolikosun müdafiəsinə qalxdı - bəyanat

**"Nikol Paşinyanın erməni kilsəsində katolikosların xidmət qaydasını aradan qaldırmağa yönəlmiş hərəkətləri Ermənistanın konstitusiya quruluşunu pozmaqla yanaşı, həm də ölkədə yaşayan milyonlarla erməninin və diasporun əsas dini azadlıqlarını pozur, onların dini hisslərini təhqir edir".**

Musavat.com erməni mediasına istinadən bildirir ki, bu barədə revanşistləri öz ətrafında birləşdirən "Ayakve" müxalifət hərəkatının yaydığı bəyanatda deyilir.

**Bəyanatda daha sonra bildirilir:** "Paşinyan erməni kilsəsində katolikosların xidmət qaydasının dəyişdirilməsi təşəbbüsü ilə Ermənistan Respublikası adından çıxış etmək hüququna malik deyil. Bu, insan hüquqlarının və vicdan azadlığının kobud şəkildə pozulmasıdır, cinayətdir".

Revanşistlərin bəyanatında qeyd olunur ki, Paşinyanın çağırışlarında Eçmiədzin Ana Taxtına qarşı təxribatların və zorakılıq təzahürlərinin risklərini görən Hayakve Birliyi Eçmiədzin Ana Taxtının ərazisində mümkün təxribatlar zamanı ilkin xəbərdarlıq və qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə fəaliyyətə başlayıb. "Erməni kilsəsinin və onun milyonlarla davamçısının qanuni hüquqlarını və dini azadlıqlarını qorumaq üçün genişmiqyaslı və çoxşaxəli ictimai fəaliyyət lazımdır. Biz məsləhətləşmələrə vahid gündəmlə - Ermənistanda dini azadlıqların müdafiəsi üzrə milli ictimai qurumun və erməni kilsəsinin yaradılması ilə başlamağı təklif edirik".

# Azərbaycana qarşı köhnə iftira - Bakıdan tutarlı cavab

## Deputatlar deyir ki, Qarabağla bağlı iddiaların hüquqi və tarixi əsası yoxdur; "Matenadaran arxivləri araşdırılmalı, tarixi irsimiz geri qaytarılmalıdır"

**Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini güc yolu ilə bərpa etməsini hələ də erməni lobbisinə bağlı antitürk, islamofob dairələr "həzm edə" bilmir. Bu da növbəti fakt.**



Ceyhun Məmmədov



Hikmət Babaoğlu

1988-ci ilində ABŞ Konqresində qlobal dini etiqad azadlığı ilə bağlı prezidentə, dövlət katibi və parlamentə tövsiyələr hazırlamaq məqsədilə yaradılmış ikipartiyalı komissiya - Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiya (USCIFR) Azərbaycana ünvanlı yeni həyasız böhtanla çıxış edib. Erməni mediasının Amerika Erməni Milli Komitəsinə (ANCA) istinadla yazdığına görə, qurum Azərbaycandakı vəziyyəti müzakirə edib və "Vaşinqtonu bir daha "artsax"da dini etiqad azadlığını pozduğuna, ermənilərə qarşı etnik təmizləmə apardığına və erməni məhbuslara qarşı sui-istifadə hallarına görə" Bakıya sanksiyalar tətbiq etməyə çağırıb.

Bildirilir ki, dinləmələr USCIRF-in bu ilin fevralında Azərbaycanda erməni əhaliyə münasibətdə guya hərbi cinayətlər törədilməsi, dini təqiblər və "artsax"dakı mifik erməni tarixi varlığını silmək üçün sistematik cəhdlərə bağlı "sübutları üzə çıxaran" (?! - red.) faktaraşdırıcı missiyasının ardınca keçirilib.

"Bakı lazımi islahatları (?! - red.) həyata keçirməyənə və insanları din azadlığı hüququnu dinc şəkildə həyata keçirdikləri üçün (?! - red.) həbs edib işgəncə verənləri məsuliyyətə cəlb edənədək ABŞ hökuməti sanksiya mexanizmindən istifadə etməlidir", - komissar Viki Hartzler sərsəmləyib. O, həmçinin bir az da irəli gedərək deyib ki, "artsax"ın işğal olunmuş ərazilərinə və ona bitişik ərazilərə beynəlxalq müşahidə missiyasının göndərilməsi vacibdir.

USCIRF sədri Stiven Şnek də ondan geri qalmayaraq bildirib ki, guya Qarabağda bir çox erməni dini obyektlər ya dağıdılıb, ya məhv edilmə təhlükəsi altındadır, ya da digər dini inancların ehtiyacları üçün onların təyinatı dəyişdirilib. Söhbət konkret halda, erməniləşdirilən alban abidələrinin öz tarixi simasına və əzəli sahiblərinə qaytarılmasından gedir.

Rəsmi Bakı bu kimi böhtanlardan xüsusi narahatlıq keçirməlidirmi? Nə etməli?

**İlahiyyatçı millət vəkili Ceyhun Məmmədov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "Belə bəyanatlar və iddialarla tez-tez qarşılaşırıq, bu cür yanaşmalar artıq adi hala çevrilib. Bu da bir daha göstərir ki, bu məsələlərə yanaşmada ikili standartlar mövcuddur. Əslində hamıya məlumdur ki, Qarabağ Azərbaycan ərazisidir və bu ərazilərin Azərbaycanın tərkib hissəsi olması heç bir şübhə doğurmur. Qarabağla bağlı irəli sürülən iddiaların heç bir hüquqi və tarixi əsası yoxdur.

Hazırda bu ərazilərdə gedən işlər - istər bərpa, istərsə də quruculuq sahəsində olsun - tamamilə Azərbaycanın daxili işidir. Azərbaycan xalqı tolerantdır və digər mədəniyyətlərə qarşı daim hörmətlə yanaşır. Qarabağda erməni abidələrinin dağıdılması ilə bağlı ittihamlar əsassızdır və reallığı əks etdirmir.

Əgər bu gün hansısa bir tərəf mədəni irsin dağıdılmasında ittiham olunmalı olsa, bu elə Ermənistandır. Çünki uzun illər işğal altında saxladıqları Azərbaycan torpaqlarında yüzlərlə dini və tarixi abidəmizi dağıdıblar, məscidlərimizi təhqir obyektinə çeviriblər. Bütün bu faktlar ortadadır və beynəlxalq ictimaiyyət tərəfindən də sənədləşdirilib.

Ona görə də Azərbaycan bu əsassız ittihamların hədəfi olmamalıdır. Ədalətli mövqe tutmaq istəyən hər kəs real faktlara əsaslanmalı, bölgədəki tarixi və hüquqi həqiqətləri nəzərə almalıdır".

**Milli Məclisin deputatı Hikmət Babaoğlu da mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, ABŞ-ın Beynəlxalq Din Azadlıqları Komissiyasının Azərbaycanla bağlı səsləndirdiyi fikirlər əsassız, böhtan xarakterlidir və heç bir tarixi əsaslandırmaya söykənmir:** "Bu, sadəcə, din azadlıqlarının müdafiəsi deyil, əksinə, dini inancların daşıyıcılarının radikal formada təəssübkeşliyinin edilməsidir. Əgər doğrudan da söhbət din azadlıqlarının müdafiəsindən gedirdisə, bəs niyə bu təşkilat 30 il ərzində Qarabağda və ona bitişik yeddi rayonumuzda ermənilər tərəfindən tamamilə dağıdılmış dini-mədəni irsimizə dair heç bir mövqe bildirmədi? Niyə erməni barbarlığını qınamadı? Niyə bu gün Ermənistan ərazisində tarix boyu əcdadlarımızın yaratdığı dini abidələr, qəbiristanlıqlar dağıdılır?! Əgər bu təşkilat doğrudan da din azadlıqları ilə məşğuldursa, bəs nədən bu məsələlərə göz yumur? Göründüyü kimi, onların mövqeyi obyektivlikdən uzaqdır və islamofob düşüncə tərzinə əsaslanır. Amma unutmamalıyıq ki, "daldan atılan daş topuğa dəyər". Artıq Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib, Qarabağda olan müsəlman və xristian dini abidələrin bərpasını həyata keçirir. Şuşa şəhərindəki qədim alban kilsəsi bərpa olunub, ermənilərin Qarabağda dağıtdığı rus-pravoslav kilsəsinin bərpası ilə bağlı tədbirlər görülür. Qarabağda istər müsəlman, istərsə də xristian mədəni irsi qorunur və bərpa olunur. Buna görə də belə əsassız bəyanatlar səsləndirməzdən əvvəl həmin təşkilat nümayəndəsini Azərbaycana göndərib ermənilərin iddiasının doğru olmadığını yoxlayardı. Biz böyük məmnuniyyətlə onları işğaldan azad olunmuş ərazilərə aparıb, viran qoyulmuş məscidlərimizi və hazırda bərpa edilən xristian və müsəlman abidələrini göstərə bilərdik.

Amma təəssüf ki, görünür, belə bir səfərin təşkilində maraqlı deyillər. Çünki onların məqsədi əvvəldən bəllidir - erməniləri müdafiə etmək və islamofob mərkəzlərin maraqlarını təmin etmək. Maraqlıdır ki, bu təşkilatlar daim radikal islamdan danışır, amma heç vaxt radikal xristianlıq və ya xristian ekstremizmi barədə heç nə demirlər. Halbuki əgər obyektiv yanaşsaq, bu gün dünyada xristian radikalizmi və terroru da az deyil. Hətta bu komissiyanın bəzi üzvləri də həmin çevrələrdən çıxmış şəxslərdir".

**Xristian abidələrinin guya ermənilərə aid olması ilə bağlı iddialara gəlincə, Hikmət Babaoğlu qeyd edib ki, bu sahədə də tarixçilərin üzərinə böyük məsuliyyət düşür:** "Bütün Qafqazda mövcud olan xristian-qıpçaq abidələrinin azərbaycanlılara, türk mənşəli əcdadlarımıza məxsus olduğunu sübut edən elmi əsaslar, sənədlər, arxeoloji materiallar və yazılı mənbələr beynəlxalq səviyyədə hələ lazımi qədər təqdim edilməyib.

Təəssüf ki, Yüzbaşyan adlı biri erməni əlifbasında lüğət hazırlayıb, Qıpçaq türklərinə aid olan dini mətnləri, xristian külliyyatını erməni əlifbasında yazılmış şəkildə toplayaraq, bu gün həmin mətni Ermənistanda saxlayır. Məqsəd xristian külliyyatını saxlamaqla o dili öyrənmək və bu dili saxtalaşdıraraq erməni maddi-mədəni irsi kimi təqdim etməkdir.

Bu, təkcə keçmişin saxtalaşdırılması deyil, həm də gələcəyə yönəlmiş ciddi təhlükədir. Əgər bu mətnlər mənim şəxsi arxivimdə varsa, deməli, bu məlumatlar digər mənbələrdə də var və ictimailəşdirilməlidir.

Necə olur ki, qıpçaq türkcəsində yazılmış bu mətnlər Polşada, Ukraynada tapılır? Çünki azərbaycanlı - yəni bu Qafqaza, xüsusilə Qafqaz Albaniyasına mənsub xristian qıpçaqlar - İslamın gəlişindən sonra qıpçaq çöllərinə, bugünkü Ukraynaya və Polşaya köçüblər. Onlar Avropaya köçərək öz dillərində yazmağa və danışmağa davam ediblər. Onların danışdığı dilə aid materiallar bu gün Kiyev arxivlərində, Polşa arxivlərində saxlanılır. Əgər biz gedib onları əldə edib tədqiq etməsək, əlbəttə ki, bizə qarşı bu cür əsassız iddialar irəli sürüləcək. Biz beynəlxalq komissiyanın yaradılması ilə bağlı təşəbbüslə çıxış edib, Matenadaran (Ermənistanda qədim əlyazmaların saxlandığı kilsə kitabxanası) arxivində saxlanılan qədim qıpçaq və Qafqaz Albaniyasına məxsus abidələrin dilinə dair mənbələri əldə edib araşdırmasaq, bu ittihamlar davam edəcək. Çünki bizim bütün xristian qıpçaq külliyyatımızın böyük əksəriyyəti bu gün Matenadaranda saxlanılır. Onlar orada, qıpçaq dilində yazılmış yazılı abidələr, sənədlər kimi qalır. Amma biz üçüncü və ya dördüncü ölkələrin vasitəsilə bu mənbələrə çıxış əldə etməliyik. Bu mənbələri əldə edib, çıxarıb, xristian tariximizi bərpa etməliyik".

❑ Afaq MİRAYIQ,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 100 (8710) 12 iyun 2025

# Müəllimə daş-qaş hədiyyə etmək olar - təşəkkür, yoxsa təzyiq aləti?

**Tovuz rayonunun Əlimərdanlı kəndindəki M.Musayev adına tam orta məktəbin müəllimi Günel Məmmədovaya valideynlər tərəfindən qızıl üzük hədiyyə edilməsi və müəllimin töhmətlə cəzalandırılması ətrafından söz-söhbət davam edir.**

Məktəb rəhbərlərinə və müəllimlərə qızıl-zinət əşyaları və digər dəyərli hədiyyələrin verilməsi ölkəmizin təhsil sistemində ilk dəfə müşahidə olunmur. Bundan əvvəl də müxtəlif məktəblərdə analoji hallar olub. Son zamanlar xüsusilə "Son zəng" tədbirləri ilə bağlı toplanan pullar, təşkil olunan bahalı tədbirlər və valideynlərin üzərinə qoyulan qeyri-rəsmi öhdəliklərlə bağlı şikayətlər artmaqdadır. Məsələn, Bakıdakı 308 nömrəli tam orta məktəb və 207 nömrəli məktəbdə oxşar hallar ictimailəşmiş, aidiyyəti qurumlar müdaxilə etmişdi.

Sual yaranır: niyə bu cür hallar davam edir və onların qarşısını birdəfəlik almaq mümkün olmur? Elm və Təhsil Nazirliyi bu sahədə hansı islahatları həyata keçirib və mövcud yanaşmalar təhsilin keyfiyyətinə necə təsir edir?

**Təhsil eksperti Kamran Əsədov bu məsələ ilə bağlı rəsmi mövqeyə etiraz edərək deyib ki, müəllim dövlət qulluqçusu deyil, əmək münasibətləri Əmək Məcəlləsi ilə tənzimlənir:** "Əgər hədiyyə təzyiq və ya qiymətləndirməyə təsir vasitəsi deyilsə, sadəcə təşəkkür xarakteri daşıyırsa, bu məsələnin intizam məsuliyyəti kimi təqdim olunması qanunsuzdur".



Məsələ cəmiyyətin müxtəlif təbəqələri arasında da birmənalı qarşılanmayıb. Bəziləri hesab edir ki, müəllimlərə təşəkkür məqsədli simvolik hədiyyələrin verilməsi təbii haldır. Digərləri isə bu cür təşəbbüslərin sonradan məktəbdə qeyri-rəsmi təzyiqlərə və ayrı-seçkiliyə yol açdığını düşünür.

Bu və oxşar halların aradan qaldırılması üçün nə etməliyik? Hüquqi mexanizmlər, ictimai nəzarət, yoxsa maarifləndirmə daha effektivdir?

**Təhsil eksperti Elçin Əfəndi** bildirir ki, valideynlərin müəllimlərə zinət əşyası bağışlaması mənfi haldır və pis örnək kimi qəbul olunur: "Bu cür hallarda etik davranış qaydaları pozulur. Təhsil verən bütün addımlarında örnək olmalıdır. Biz istənilən halda belə bir görüntünü təqdim edəndə cəmiyyətin münasibəti birmənalı olmur, əksəriyyət tənqid edir. Halbuki müəllimlərə o hədiyyəni verənlər də bu cəmiyyətin üzvləridir. Belə hədiyyələrlə bəhsə girmək prinsipi formalaşır, bir sinfin digər sinfə təzyiq göstərmək mexanizmi yaranır. Bir müəllim həmkarına bahalı hədiyyə verildiyini görəndə o da şagirdlərindən bunu tələb edə bilər. Ona görə də belə halların olmaması üçün ilk növbədə müəllimlərin etik davranış qaydalarına riayət edilməlidir. Belə hallarda heç bir çəkiliş aparılmamalı və onu yaymamalıdırlar. O cümlədən nəzarət mexanizmi bir qədər də sərtləşdirilməlidir. Ümumilikdə bir müəllimin etdiyi səhv sabah başqalarının da eyni şeyi etməsinə təhrik edir. Ona görə də nazirlik maksiumum çalışmalıdır ki, belə məqamlarda səhvə yol verən müəllimlərə qanunvericiliyin tələbinə uyğun töhməti anında versin. Bu da başqalarına örnək olsun ki, belə bir davranışın nəticəsi bu ola bilər. Valideyn və ya şagird müəllimə təşəkkür etmək istəyirsə, məcbur deyil ki, ona bahalı zinət əşyası alsın və bunu videoya çəkib yaysın. İctimailəşdirdiyi zaman bunu hər kəs bilir və münasibət birmənalı olmur.

Təhsilverən o görüntü çəkilən zaman artıq bilməli idi ki, bu görüntü haradasa paylaşılacaq. Həmin müəllim deməliydi ki, bu görüntülər yayılmasın və nümayiş etdirilməsin. Çünki ictimailəşən zaman digər müəllimlər, siniflər, məktəblər də bundan xəbər tutur və tendensiya halını alır. Səhəri gün valideynlər qrupuna yazılır: "Görürsünüz, başqa valideynlər müəllimi ovcunun içində saxlayır". Beləliklə, müəllimlər və siniflər arasında bəhs yaranır. Ona görə də şəxslər barəsində qanunvericiliyə uyğun olaraq tədbir görülməlidir. Tovuzdakı müəllimə töhmət verilməsi də yerində olub".

**Ekspert deyir ki, belə hallara xarici ölkələrdə rast gəlinmir:** "Hansısa Avropa ölkəsində bunu görə bilmərik. Bəlkə hansısa istisna halda müəllimə hədiyyə verilə bilər, amma yenə də format fərqli olur. Orada müəllimə hədiyyə veriləndə bunun səbəbini soruşurlar. Müəllim soruşur ki, bu hədiyyə ona hansı əsasla verilir. Bizdə isə hədiyyə veriləndə qarşı tərəf sualsız qəbul edir. Çünki gözləntisi var".

**Millət vəkili Fazil Mustafa qəzetə açıqlamasında bildirib ki, müəllimləri hüquq-mühafizə orqanları və ya kriminal istiqamətdə araşdırmaya yönəltmək yanlışdır:** "Onlara təlimatlar verilməli və maarifçilik işi aparılmalıdır. Müəllimlərə və valideynlərə izah olunmalıdır ki, hansısa bahalı hədiyyənin verilməsi doğru deyil. Bəzən valideynlərin təkidi və bəsit yanaşması müəllimi zərbə altında qoyur. Bunun qarşısını sözlə, təbliğatla almaq olar. Müəllimi bu kimi məsələlərə görə cinayət və ya hansısa inzibati məsuliyyətə cəlb etmək yanlışdır. Fikrimcə, biz müəllimləri cəmiyyətə yem edirik. Onun əzilməsi üçün şərait yaradırıq. Müəllimin də səhvi ola, yanlış addım ata bilər. Bunu kütləvi şəkildə linç kampaniyasına çevirməməliyik. Təbii ki, müəllim də çalışmalıdır ki, valideynlərlə daha səviyyəli kontakta girsin. İnsanlarımız da bu məsələdə təmkinli davransınlar".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

# Mərkəzi Bank qərarını verdi: inflyasiya hədəf daxilindədir...




**Azərbaycan Mərkəzi Bankının İdarə Heyəti faiz dərəcələrinin dəyişməz saxlanması barədə qərar qəbul edib. Qərara əsasən uçot dərəcəsi 7.25 faiz, faiz dəhlizinin aşağı həddi 6.2 faiz, faiz dəhlizinin yuxarı həddi isə 8.25 faiz səviyyəsində qalıb.**

Tənzimləyici bildirir ki, qərar faktiki inflyasiyanın proqnoz inflyasiya trayektoriyasına uyğunluğu, proqnozlaşdırılan inflyasiyanın hədəflə (4±2%) müqayisəsi, son qlobal iqtisadi proseslərin mümkün təsirləri, daxili makroiqtisadi vəziyyət, həmçinin pul siyasəti qərarlarının ötürücülüyü nəzərə alınmaqla qəbul edilib.

Son iki ayda rəsmi açıqlanan inflyasiya səviyyəsinin ciddi yüksəlməsinə baxmayaraq, Mərkəzi Bankda görə, illik inflyasiya proqnozlaşdırılan trayektoriya ilə hərəkət edir: "2025-ci ilin aprelində 12 aylıq inflyasiya 6.3 faiz, aylıq inflyasiya isə 0.3 faiz təşkil edib. İllik qiymət artımı ərzaq malları və xidmətlər üzrə 7.6 faiz, qeyri-ərzaq malları üzrə isə 2.7 faiz təşkil edib. İllik baza inflyasiya isə 4.8 faiz olub.

Son aylarda inflyasiyaya təsir edən xarici amillər üzrə qeyri-müəyyənliklər yüksək olaraq qalır. Beynəlxalq Valyuta Fondunun məlumatına görə, 2025-ci ilin may ayında əmtəə qiymətləri indeksi aylıq 1 faiz, illik isə 4.6 faiz azalıb. Ticarət tərəfdaşlarının orta çəkili illik inflyasiyası cari ilin aprelində ötən ilin eyni ayına nəzərən 9.6 faiz olub. Manatın qeyri-neft-qaz sektoru üzrə nominal effektiv məzənnəsi 2025-ci ilin may ayında ötən ilin eyni ayı ilə müqayisədə sabit qalıb".

Tənzimləyicinin açıqlamasına əsasən, xarici sektor göstəriciləri əlverişli olaraq qalır. Belə ki, Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2025-ci ilin 4 ayında da xarici ticarət balansında müsbət saldo qeydə alınıb. Buna görə də Mərkəzin Bankın 2025-ci və 2026-cı illərin yekunu üzrə tədiyə balansının cari hesabının profisitli olacağı proqnozu dəyişməz qalır: "Pul siyasəti alətləri maliyyə bazarlarında gedən proseslər və bank sisteminin likvidlik mövqeyindəki dəyişikliklər nəzərə alınmaqla tətbiq edilir. Təminatsız pul bazarında faizlər Mərkəzi Bankın faiz dəhlizi daxilində hərəkət edir. AZIR indeksinin orta günlük səviyyəsi mayda və iyunun ötən dövründə 6.7 faiz olub. Mərkəzi Bank banklararası pul bazarında gedən proseslərin təhlilini və qabaqcıl beynəlxalq təcrübəni nəzərə alaraq Avropa Yenidənqurma və İnkişaf Bankının ekspertləri ilə sıx əməkdaşlıq çərçivəsində AZIR indeksinin hesablanmasının yeni və daha təkmil qaydalarını hazırlayaraq təsdiq edib. Aprel ayından başlayaraq Maliyyə Nazirliyi tərəfindən vahid xəzinə hesabının sərbəst qalığının kommersiya banklarında yerləşdirilməsi məqsədilə keçirilən depozit hərracları nəticəsində bank sektorunda likvidliyin artması AZIR indeksinə azaldıcı təsir göstərib. Xatırladaq ki, ötən ilin ikinci yarısının bir çox aylarında hökumət hesabları qalığının artımı qısamüddətli faizlərə artırıcı təsir edirdi. Bu şəraitdə Mərkəzi Bank açıq bazar əməliyyatlarını intensivləşdirib, artan likvidliyin əhəmiyyətli hissəsi Mərkəzi Bankın əsas alətinə çevrilməkdə olan 1 həftəlik əməliyyatlarla sterilizasiya olunub. Sterilizasiyayönümlü açıq bazar əməliyyatlarının effektivliyini artırmaq üçün pul siyasətinin əməliyyat çərçivəsində dəyişiklik edilmiş, 7 günlük repo əməliyyatı 7 günlük depozit əməliyyatı ilə əvəzlənib. Pul bazarında aktivlik yüksək olaraq qalır. 2025-ci ilin 5 ayında ötən ilin müvafiq dövrünə nəzərən təminatsız bazarda əqdlərin həcmi 1.6 dəfə, sayı isə 1.8 dəfə artıb".

**Mərkəzi Bankdan verilən məlumata əsasən, faiz dəhlizinə həsr olunmuş ötən iclasdan bəri inflyasiyanın risk balansında dəyişikliklər əsasən xarici mühitlə əlaqədar olub. Belə ki, qlobal ticarətdə baş verən proseslər əmtəə və maliyyə bazarlarında dalğalanmaları gücləndirir:** "Bu şəraitdə əsas ticarət tərəfdaşı olan ölkələrdə inflyasiyanın yüksəlməsi, dollar indeksinin azalması və nominal effektiv məzənnənin aşağı templə möhkəmlənməsi xarici risk faktorlarındandır. İnflyasiyanı artıra biləcək daxili risk faktorları kimi isə xərc amilləri ilə yanaşı məcmu tələbin izafi artımı qeyd oluna bilər. Həmçinin kredit aktivliyinin məcmu tələbə və qiymətlərə mümkün təsirləri daim diqqətdə saxlanılır. Ümumilikdə, 2025-2026-cı illər üzrə inflyasiya proqnozlarında daxili amillərin payı aşağı qiymətləndirilir. Baza ssenariyə əsasən 2025-ci və 2026-cı ildə illik inflyasiyanın hədəf daxilində olacağı proqnozu dəyişməz qalır.

Ümumilikdə, mövcud pul siyasəti inflyasiyanın hədəf daxilində saxlanılmasına və inflyasiya gözləntilərinin sabitləşməsinə yönəlib. İnflyasiyanın xarici mühitində qeyri-müəyyənliklərin azalması növbəti iclasda uçot dərəcəsinin azaldılması üçün zəmin yarada bilər".

**AMB bildirir ki, faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərarlar faktiki və proqnozlaşdırılan inflyasiya, xarici və daxili risk amillərinin dinamikasından asılı olaraq veriləcək:** "Mərkəzi Bank bundan sonra da qiymət sabitliyini təmin etmək üçün sərəncamındakı bütün vasitələrdən istifadə edəcək. Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərar barədə məlumat 2025-ci il iyul ayının 23-də ictimaiyyətə açıqlanacaq və bununla bağlı mətbuat konfransı keçiriləcək".

❑ **DÜNYA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 100 (8710) 12 iyun 2025

# SOS: Azərbaycanda qadınlara zorakılıq artıb - qorxunc statistika

**Psixoterapevt Rövşən Nəcəfov:** "Biz "Belə gəlib, belə də gedəcək" düşüncəsi ilə yaşayan toplum olaraq psixoloji sağalma mərhələsinə çata bilmirik"

**Sosioloq Üzeyir Şəfiyev:** "Qadınların iqtisadi cəhətdən asılılığı azaldıqca daha müstəqil, daha azad, eqoist həyata meyllənirlər"

**Azərbaycanda son 10 gün ərzində 3 qadın qətlə yetirilib, 2 qadın isə bıçaqlanıb. Bu barədə məlumatı vəkil Zibeydə Sadıqova paylaşıb. O bildirib ki, qadınlar əsasən ailə üzvləri, həyat yoldaşları tərəfindən şiddətə məruz qalır.**

**Klinik psixoloq, psixoterapevt Rövşən Nəcəfov** "Yeni Müsavat"a şərhində bildirdi ki, zorakılıq bir insanın həyatına, bədəninə və düşüncəsinə müdaxilədir: "Zorakılıq təkcə fiziki gücdən doğmur. O, düşüncələrə, gözləntilərə və ya sosial rollara yüklənmiş mənalardan yaranır. Cəmiyyətimiz yazılmış qanunlarla deyil, yazılmamış qaydalarla idarə olunur. Həmin qaydalarda qadın susmalı, kişi hökm etməlidir. Bu isə patriarxal düşüncənin kök salmış və gündəlik həyatda özünü göstərən təzahürüdür. Belə bir mühitdə böyüyən uşaq, istər oğlan, istər qız, gələcəyin zorakılıq dövranının yeni iştirakçısına çevrilir. Zorakılıq edən kişi bəzən vaxtilə şiddətə məruz qalmış qadının yetişdirdiyi övladdır. Bu isə faciənin zəncirvari davamıdır. Qadın zərifdir, bu, doğrudur. Lakin zorakılığa məruz qalan qadının zərifliyi itib, zəifliyə çevrilə bilər. Çünki dəfələrlə travma yaşayan insan bir gün özünə nifrət etməyə başlayır. "Səssiz qalmışamsa, deməli, layiq idim" kimi düşüncələrlə özünü günahlandırır. Bu zaman onun şəxsiyyəti parçalanır. Zorakılıq edən kişi əslində güclü deyil. Əksinə, öz gücsüzlüyünü gizlətmək üçün zor tətbiq edir. İçində yığılıb qalmış emosional yük, həll edə bilmədiyi psixoloji təzyiqlər və cəmiyyətin "kişi ağlamaz", "kişi zəiflik göstərməz" təlqinləri onu zorakılığa sövq edir. Bu, kişinin cəmiyyətin ona yüklədiyi roldan qaçmaq cəhdidir. Münasibətlərdəki gözləntilər çox zaman ən ağır psixoloji yükə çevrilir. "Kişi ailədə təminatçı, sərt və hökm sahibi olmalı, qadın isə itaətkar, təmkinli və susqun olmalıdır" kimi oturuşmuş düşüncələr münasibətlərdə bərabərliyi deyil, hökmranlığı yaradır. Bu isə zorakılığın psixoloji təməlini möhkəmləndirir. Zorakılığın artması hüquq sisteminin deyil, mədəniyyətin iflasıdır. Hüquqi addımlar mütləq atılmalıdır. Amma hüquqdan əvvəl cəmiyyətin düşüncə sistemi dəyişməlidir. Biz isə dəyişməkdən qorxan, sorğulamağı bacarmayan, "belə gəlib, belə də gedəcək" düşüncəsi ilə yaşayan bir toplum olaraq psixoloji sağalma mərhələsinə çata bilmirik. Hər birimiz bu prosesin bir hissəsiyik. Hər susduğumuzda, hər "ailə məsələsidir, qarışmaq olmaz" dediyimizdə, hər dəfə "kişidir də" deyərək məsuliyyətdən yayınanda zorakılıq zəncirinin yeni bir halqasını bərkitmiş oluruq. Mənа yüklənmiş bütün stereotiplər əvvəldə və ya sonda fəlakətə səbəb olur".

**Sosioloq Üzeyir Şəfiyev mövzunu şərh edərkən qeyd etdi ki, məişət zorakılığı təkcə Azərbaycanda yox, bir sıra ölkələrdə müzakirə mövzusudur. Onun fikrincə, məişət zorakılığı təkcə qadına qarşı yox, kişilərə qarşı zorakılıq kimi də qiymətləndirməlidir:** "Zorakılığın ən çətin identifikasiya forması emosional-psixoloji zorakılıqdır. Bu forma daha çox qadınlar tərəfindən kişilərə tətbiq olunur. Sadəcə, Azərbaycan ənənəvi cəmiyyət olduğu üçün kişilər aidiyyəti ünvanlara bununla bağlı müraciət etmirlər. Qadınlar övladlarına da şiddət göstərirlər, yəni ailə konflikti zəminində aqressiya uşaqlara yönəlir. Azərbaycanda "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanundan irəli gələrək məişət zorakılığı törədən şəxsə qarşı hüquqi məsuliyyət nəzərdə tutulur. Yanaşma fərqlidir, səbəblər çoxdur. Məlumdur ki, cəmiyyətimizdə düşüncə transformasiyası baş verir, qadınlar köhnə qaydalarla yaşamaq istəmirlər, kişilər də köhnə qaydalarla idarə edə bilmirlər. Qadınların iqtisadi cəhətdən asılılığı azaldıqca daha müstəqil, daha azad, eqoist həyata meyllənirlər. Bu da köhnə təfəkkürlü, mühafizəkar kişiləri qane etmir, onlar yeni şəraitə uyğunlaşa bilmirlər, buna görə də qadınlara qarşı dözümsüzlük göstərirlər. Kişilər daha çox qısqanclıq zəminində, xəyanət əsaslı zorakılıq törədirlər. Sosial şəbəkələr xəyanəti üzə çıxarıb, həm də xəyanət üçün şərait yaradıb. Bu da ailədə qovğa yaradır".



**Ü.Şəfiyevin fikrincə, Azərbaycan kimi ənənəvi cəmiyyətlərin əsaslarını sarsıtmaq məqsədi güdən bəzi Qərb mərkəzli qüvvələr gender bərabərliyi adı altında ölkəmizdə qadın-kişi qarşıdurması yaratmağa çalışırlar:** "Boşanmaların statistikasına nəzər salanda müəyyən təsirlər özünü göstərir. Hesab edirəm ki, Azərbaycanda qadın hüquqları ilə bağlı maarifləndirmə işləri sahəsində buraxılan bəzi səhvlər də qadınları kişilərə qarşı aqressivləşdirir. Buna görə də həssas yanaşma olmalı, ailə münaqişələri efirlərə daşınmamalıdır. Fikrimcə, müvafiq qurumlar münaqişəli ailələri qeydə almalı, onlarla sosial-psixoloji iş aparılmalıdır. Eyni zamanda hesab edirəm ki, sosial mediada ailə dəyərlərini deqradasiyaya uğradan filmlərin, verilişlərin yayımı dayandırılmalıdır. Yanaşma rasional olmalı, gəncləri ailə dəyərlərinə hazırlamalıyıq".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

# Qonşu ölkə azyaşlılara enerji içkisi satışını yasaqladı - bəs Azərbaycan?

**Fazil Mustafa:** "Bu məsələ ilə bağlı qəti addımların atılması vacibdir"

**Zülfüqar Yusifov:** "Bu içkilərin hər dəfə yeni bir növü ortaya çıxır və onların tərkibi barədə əhalidə dəqiq məlumat yoxdur"

**Rusiyada yetkinlik yaşına çatmayanlara enerji içkilərinin satışı qadağan edilib. Rusiya Prezidenti Vladimir Putin sərəncam imzalayıb. İnzibati Xətalar Məcəlləsinə əlavə edilmiş müddəaya görə, bu qaydaya əməl etməyən vətəndaşlar 30-50 min rubl, vəzifəli şəxslər 100-200 min rubl, hüquqi şəxslər isə 300-500 min rubl məbləğində cərimələnəcək.**

Dövlət Dumasının sədri Vyaçeslav Volodin bu qərarın gənc nəslin sağlamlığının qorunması üçün qanunvericilik səviyyəsində aparılan sistemli işin davamı olduğunu vurğulayıb.

Azərbaycanda da belə bir qadağa rəsmiləşə bilərmi?

Hazırda gənclərin seve-seve içdiyi enerji içkiləri sağlamlıq üçün ciddi problemlər yaradır. Nəzərə almaq lazımdır ki, enerji içkilərinin satışı qanunvericiliklə 18 yaşından aşağı şəxslərə tövsiyə olunmur. Bunun da səbəbi həmin içkilərin inkişafda olan orqanizmə zərər vura bilməsi ehtimallarıdır.

Artıq illərdir ki, enerji içkiləri uşaqdan böyüyə qədər heç bir məhdudiyyət qoyulmadan hər kəsə satılır. Halbuki mütəxəssislərin sözlərinə görə, istehsal zamanı orqanizmi stimulyasiya edən maddələrdən istifadə olunduğundan bu içkilər insanın istər psixoloji durumuna, istər ürək-damar sisteminə, istərsə də normal maddələr mübadiləsinə mənfi təsir göstərir. Enerji içkilərindən müntəzəm istifadə nəticəsində baş verən qəfil ölüm hadisələrinə də məhz gənclər və yeniyetmələr arasında rast gəlinir.



Mütəxəssislər vurğulayırlar ki, mağazalarda satılan bir banka enerji içkisinin tərkibində 0,5 litr su, 75 mq kofein, 500 mq taurin, şəkər, qlükoza, qlükoronolakton, rəngverici, aromatizator, limon duzu, duzluluğu tənzimləyici, karbon 4 oksid və digər qarışıqlar var.

Onu da qeyd edək ki, hazırda Azərbaycanda enerji içkilərinin satışı ilə bağlı yaş məhdudiyyəti hüquqi müstəvidə rəsmiləşməyib, bu içkilər yeniyetmərə tövsiyə olunmur, amma məcburi xarakter daşımır.

**Millət vəkili Fazil Mustafa mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlamasında deyib:** "Əslində Azərbaycanda da enerji içkilərinin satışı qadağan olunmalıdır. Ölkəmizdə gənclərin ən böyük problemlərindən biri də məhz budur. Təəssüf ki, bu sahəyə yetərincə diqqət yetirilmir. Bir çox hallarda biznes maraqları sağlamlığın önünə keçir və qarşısını almaq üçün müxtəlif yollar axtarılır. Hətta bəzən qanun qəbul edilsə belə, onun işləmədiyini müşahidə edirik. Bu səbəbdən bu məsələ son dərəcə narahatedici xarakter daşıyır və ciddi şəkildə üzərində düşünülməlidir.

Fikrimcə, burada əsas narahatedici məqam odur ki, artıq gənclərin xeyli hissəsi bu vərdişin fəsadlarını yaşamağa başlayıb. Çox vaxt göstərilən laqeydlik də bu vəziyyətin yaranmasında rol oynayır. Ona görə də bu sahədə qəti addımların atılması vacibdir".

**Bakı Ağrı Klinikasının baş həkimi Zülfüqar Yusifov da enerji içkilərinin satışının qadağan olunmasının tərəfdarı olduğunu deyib:** "Enerji içkiləri ilə bağlı məsələ hər zaman gündəmdədir. Davamlı olaraq satışa buraxıldığından bəri bu sahədə müzakirələr dayanmadan davam edir. Çünki bu enerji içkilərinin xüsusən gənclər tərəfindən sıx şəkildə istifadə olunması müxtəlif fəsadlara səbəb ola bilir. Bu fəsadlar nədən ibarətdir?

İlk növbədə, bu içkilər tərkib baxımından olduqca qeyri-müəyyən və bir-birindən xeyli fərqlənirlər. Hər dəfə yeni bir növü ortaya çıxır və onların tərkibi barədə əhalidə dəqiq, doğru-düzgün məlumat yoxdur.

Ümumilikdə qeyd edə bilərəm ki, bu içkilər həm psixoloji, həm də fiziki asılılıq yarada bilirlər. Beyinə olduqca asanlıqla enerji ötürən maddələr qismində, davamlı olaraq ümumi gümrahlıq hissi yaratmaq məqsədilə gənclik tərəfindən qəbul edilir. Amma bu içkilər qəbul zamanı bir sıra əlavə təsirlər də verə bilir. Xüsusən insanlarda yuxusuzluq, əsəbilik meydana çıxır, ürək döyüntüləri artır.

Qan təzyiqində və şəkərin miqdarında artım müşahidə olunur. Çünki bu içkilərin tərkibində lazım olandan artıq miqdarda şəkər olduğu barədə məlumatlar var.

Həmçinin bu kimi içkilər mədə-bağırsaq sisteminə zərərli təsir göstərir, mədə-bağırsaq sisteminin divarını aşındırır. Bütün bunlar isə ümumilikdə sağlamlıq və həyat keyfiyyətinin aşağı düşməsinə gətirib çıxaran patologiyalara səbəb ola bilir. Xüsusilə narahatedici cəhət ondan ibarətdir ki, bu içkilər qəbul edildikcə onları daha sıx və daha çox qəbul etmək tələbatı yaranır ki, bu da təhlükənin nə qədər böyük olduğunu göstərir.

Əlbəttə ki, bu içkilərin tərkibinin müvafiq qurumlar tərəfindən diqqətlə öyrənilməsi və əgər doğrudan da sağlamlığa qeyd etdiyimiz şəkildə zərərləri təsdiqlənərsə, onların satışının dayandırılmasında böyük fayda var".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# 700 manata follekul donorluğu nədir?

**Hüquqşünas:** “Dövlət bununla bağlı sərt cəza siyasəti həyata keçirməlidir; **ginekoloq:** “Portal yaradılmalıdır ki, bir donor ikinci dəfə öz hüceyrələrini verə bilməsin”

**Son illər klinikaların follekul və sperma alveri barədə çox danışılır. Klinikalar pul müqabilində donorlardan alıb, süni mayalanma ilə pasiyentlərə köçürürlər. Sosial şəbəkələrdə də bu cür elanları tez-tez görmək olur.**

Bu mövzuda araşdırma apardıqda mövcud vəziyyətdən hali olmaq elə də çətin deyil. Misal üçün, İnstagram-da “follekul donoru olmaqla 600 manat pul qazan”, “Follekul donoru ol, ümid ol” kimi elanlar çoxdur. Bu cür elanlar kişilər üçün də keçərlidir, bir çox hallarda işsiz gənclər öz genetik materialını sataraq donor olurlar. Bəzən elanda göstərilən məbləğdən daha yüksək pul da təklif olunur. Ən acınacaqlısı isə odur ki, follekulunu satan qadınlarla, spermasını satan gəncləri gələcək ümumiyyətlə maraqlandırmır, təki qazanc yeri olsun. Eyni donorlardan isə bir çox hallarda onlarla ailə istifadə edir. Bu o deməkdir ki, bu ailələrdə bir-birindən xəbərsiz bacı-qardaşlar böyüyür.

Narahatlıq doğuran digər məqam isə bir çox hallarda qadınların aldadılmasıdır. Donorlara bir follekul götürüləcəyi deyilsə də, realda 3-6 follekulun götürüldüyü iddia olunur. Bu prosedur isə qadınların narkoz altında olduqları zaman, xəbərləri olmadan həyata keçirilir. Donordan 500-700 manata follekul alan klinikalar bunu iki-üç dəfə artıq qiymətə satırlar.

Bütün bu hərc-mərclik isə ona görə baş verir ki, qanunvericilikdə bununla bağlı boşluqlar var. Azərbaycan qanunvericiliyində reproduktiv texnologiyalarla bağlı bəzi qaydalar olsa da, bu cür kommersiya xarakterli donor alverinə dair konkret nəzarət mexanizmi zəifdir. Eyni donorun bir neçə ailədə istifadə olunması, uşaq məlumatlarının anonim saxlanması və donor razılığının formal şəkildə alınması kimi hallar risk yaradan məqamlar arasındadır.

**Bizimlə söhbətdə cərrah-ginekoloq Rəşad Sultan deyib ki, Türkiyədə bu cür donorluq yasaqdır:** “Əslində bu proses süni mayalanma kimi yox, bədəndən kənarda mayalanma kimi tərcümə olunur. Əgər qadının yumurtalıqları, kişinin cinsiyyət vəziləri işləyir, amma hansısa xəstəlik səbəbindən problem varsa, o zaman döllənmə prosesində yardımçı olunur. Biz bunu kənarda laboratoriyada edirik. Sonra o uşağı ana bətninə qoyuruq. Bunun sayəsində insanlar övlad sahibi olurlar. Donorluq isə süni mayalanma demək deyil. Bir çox hallarda ananın yumurtalıqları erkən tükənir, kişinin cinsiyyət vəzilərində toxum istehsal olunmur. Nə edə bilərlər, bunlar da uşaq sahibi olmaq istəyirlər. Bu zaman başqasının yumurta hüceyrəsindən mayalanma əldə edilir, hamiləlik davam etdirilir. Bu donorluq hesab olunur. Qardaş ölkə Türkiyədə donorluq qadağandır, bunu etmək istəyənlər başqa ölkələrə gedirlər. Bu problemlər hüquqla tənzimlənməlidir. Tibbin digər sahələri hüquqla tənzim olunduğu kimi, bu məsələlər də reproduktiv qanun adı altında ölkəmizdə mütləq tənzim olunmalıdır. İllərdir müzakirə olunsa da, biz reproduktiv sağlamlıq haqqında qanunun qəbulunu görmürük, gecikir. O qanunda göstərilməlidir ki, genetik reyestr, yaxud portal yaradılsın, elektron baza olsun. Bilinsin ki, bir nəfər burada donorluq təklif edibsə, artıq başqa yerdə yenidən öz hüceyrələrini verə bilməz. Adı siyahıda olsun”.



**Ginekoloq əlavə edib ki, qadınların və kişilərin donor olması səhhətlərinə mənfi təsir edə bilər, hətta ölümə səbəb ola bilər:** “Hər bir tibbi prosedurun riskləri var, yumurta toplama bir tibbi prosedurdur və iki hissədən ibarətdir. Öncə dərman verib yumurta yetişdirilir. Bu zaman gözlədiyimizdən daha çox follekul yetişir, qarın boşluğuna su toplanır, qan laxtalana bilir. Böyrək, qaraciyər çatışmazlığına səbəb olur. Nadir hallarda da olsa, ölümə gətirib çıxarır. İkinci risk prosedurla bağlıdır. İynəni uşaqlıq yolu ilə salıb ultrasəs nəzarəti altında follekulları aspirasiya edirik. İynəni qarın boşluğundakı orqana, yumurtalığa batırırıq, hər nə qədər ultrasəs nəzarəti altında olsa da, orada orqan zədələnməsi, damar zədələnməsi, daxili qanaxma, infeksiyalar ola bilər. Bunlar da nadir hallarda da olsa, ölümə gətirib çıxara bilər. Bu prosedur nəticələrdir. Uzaq nəticələrinə gəldikdə isə təkrar-təkrar stimulyasiyalarda az ehtimal olsa da, xərçəng yaranması riski var”.

**Hüquqşünas Ramil Süleymanov mövzu ilə bağlı “Yeni Müsavat”a deyib ki, ölkə ərazisində insan orqanlarının və toxumalarının transplantasiyası haqqında qanun mövcuddur:** “Bu qanunun əsas məqsədi ölkə ərazisində donorluğun qanuniləşdirilməsi və transplantasiyanın hüquqi əsaslarını, o cümlədən dövlətin mühüm vəzifələrini, tibb işçilərinin hüquq və vəzifələrini və digər münasibətləri tənzimləyir. Qanunun 3.3-cü maddəsində bildirilir ki, həmin qanun reproduksiya vasitələrinə və bu məqsədlə istifadə edilən orqanlara, konkret desək, sperma və yumurtalıqların istifadəsinə, onların transplantasiyasına, rüşeymləşdirilməsinə, qan və onun komponentlərinə şamil olunmur. Həmin qanundan çıxış edərək bildirmək istəyirəm ki, 32-ci maddədə donor orqanlarının alqı-satqısı və reklamı Azərbaycan Respublikasının ərazisində qadağandır. Cinayət Məcəlləsinin 137-ci maddəsinə əsasən insan orqanları və toxumalarının, həmçinin donor orqanlarının alqı-satqısı ölkə ərazisində cinayət hesab olunur. 137.1-ci maddəyə əsasən 6 min manatdan 9 min manatadək cərimə olunur. İki ilə qədər islah işləri və ya 3 ilə qədər vəzifə tutmaq, müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə və ya edilməməklə 3 il müddətinə azadlıqdan məhrumetmə cəzası təyin olunur. əgər şəxsin razılığı olmadan məcburi şəkildə bu fəaliyyətin həyata keçirilməsi isə 4 ilə qədər azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırılır”.

**Vəkil deyir ki, dünyanın bir sıra ölkələrində follekul donorluğu qanunidir:** “Bununla bağlı bəzi ölkələr artıq qanunvericilikdə əlavələr və düzəlişlər ediblər. Azərbaycanda bu, qanuni hesab olunmur, birbaşa cinayət hesab olunur. Əgər qanuni hala gətirilərsə, Ailə Məcəlləsinə də, Mülki Məcəlləyə, bütün qanunvericilik sisteminə dəyişiklik edilməlidir. Bir hüquqşünas kimi hesab edirəm ki, reproduksiya ilə bağlı fəaliyyət dövlət tərəfindən nəzarət olunmalıdır. Bunun gizli aparılması isə gələcəkdə sağlamlıqla bağlı çox ciddi nəticələrə səbəb ola bilər. Ona görə dövlət bununla bağlı sərt cəza siyasəti həyata keçirməlidir. Gələcəkdə qardaş və bacıların bilmədən evlənməsinin qarşısını almalıdır”.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Mirayiq”**




## Əmək hüquqlarını pozan şirkət 20 min manat cərimə olunub

**Əmək hüquqlarının pozulması hallarına qarşı mübarizə davam etdirilir. “R+C-TRANS” MMC tərəfindən işçinin əmək hüquqlarının pozulması faktı ilə bağlı Masallı Rayon Prokurorluğunda araşdırma aparılıb.**

Masallı Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, araşdırma zamanı qeyd olunan hüquqi şəxs tərəfindən əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən (bağlanmadan) şəxsin Masallı rayonu ərazisində müvafiq işlərin yerinə yetirilməsinə cəlb edilməsi müəyyən edilib.

Faktla bağlı Masallı Rayon Prokurorluğunda Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 192.1-ci (əmək müqaviləsi (konktraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün aidiyyəti üzrə hüquqi şəxsin ünvanına, Sumqayıt Şəhər Məhkəməsinə göndərilib və məhkəmənin qərarı ilə hüquqi şəxs 20 min manat məbləğində inzibati cərimə edilib.

Eyni zamanda Cəmiyyətin direktoru Məmmədov Rzaxan Şiraslan oğlu barəsində həmin məcəllənin eyni maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün aidiyyəti üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin Lənkəran-Astara Regional şöbəsinə göndərilib və vəzifəli şəxs müvafiq qərarla 3 min manat məbləğində cərimə edilib.




## Gəncədə xəstəxanada oksigen balonu yanıb, 10-dan çox xəstə təxliyə edilib

**Gəncədə xəstəxanalardan birində oksigen balonu yanıb, xəstələr şəhərdəki digər tibb müəssisəsinə köçürülüb. “Report”un Qərb bürosunun məlumatına görə, Gəncə Şəhər Birləşmiş Xəstəxanasının nəzdində olan Abbas Səhhət adına 1 Saylı Xəstəxanada oksigen balonunun yanması ciddi problemlərə yol açıb.**

Xəstəxananın reanimasiya şöbəsində olan pasiyentlər Gəncə Şəhər Zülfüqar Məmmədov adına 3 saylı xəstəxanaya köçürülüb.

İlkin məlumata görə, 10-dan artıq xəstə təxliyə olunub.

Qeyd edək ki, Abbas Səhhət adına xəstəxanada işıqlar söndürülüb, bəzi xidmətlər dayandırılıb.

## Türkiyədə miqrant qaçaqmalçılığına qarşı əməliyyat keçirilib, 273 nəfər saxlanılıb

**Türkiyənin 51 əyalətində miqrant qaçaqmalçılığı təşkilatçılarına və qanunsuz mühacirətə qarşı son iki həftədə keçirilən əməliyyatlar nəticəsində bu cinayətləri törətməkdə şübhəli bilinən 273 nəfər və 1022 qanunsuz miqrant saxlanılıb.**

“Report” “TRT Haber”ə istinadən xəbər verir ki, bu barədə Türkiyənin daxili işlər naziri Əli Yerlikaya bildirib.

Onun sözlərinə görə, miqrant qaçaqmalçılığı təşkilatçılığında şübhəli bilinənlərin 98-i həbs edilib, qalanları barəsində araşdırma davam edir.

Bildirilib ki, qanunsuz mühacirlərin deportasiyası başlayıb.

Əməliyyat İstanbul başda olmaqla, 51 vilayətdə keçirilib.

YENİ MÜSAVAT

Son səhifə

N 100 (8710) 12 iyun 2025

iyun

## Bunları bilirsinizmi?

* Yeməkdən qabaq dişlərinizi fırçalasanız daha az yemək yeyəcəksiniz.
* Hıçqırığınız tutduğu zaman 10 saniyə nəfəs almayın və 3 dəfə udqunun. Hıçqırığınız keçəcək.
* Əgər soyuq duş altında 3 dəqiqə dayansanız, 40 kalori yandıracaqsınız.
* Qədəhdəki şərabın keyfiyyətini öyrənmək istəyirsinizsə, qədəhi asta çalxalayın. Qədəhin içindəki çöküntü nə qədər qatıdırsa, şərab bir o qədər keyfiyyətlidir.
* Yumurtanı qaynadarkən onun çatlamasını istəmirsinizsə, qaba yanmış kibrit qoyun.
* Tərə qarşı dezodorantları səhər yox, gecə vurun. Bu, daha uzun müddətə qoxunun qarşısını alacaq.
* Ütünün suyunun içinə bir az ətir vursanız, paltarlarınızdan gözəl qoxu gələcək.
* Külqabının pis iylənməməsi üçün onu su ilə yox, zeytun yağı ilə isladın.
* Pişiklərin divan və ya kreslonuza oturmasını istəmirsinizsə, həmin yerə naftalin qoyun. Pişiklər onu heç sevməzlər.
* Saçlarınızı boyadarkən üzünüzə dəyən boyanı südə batırılmış pambıqla silin.
* Yata bilmirisinizsə, albalı suyu için.
* Zibil qutunuzun içinə soda və ya qabartma tozu töksəniz pis qoxunun qarşısını ala biləcəksiniz.
* Yumurtanı qaynatdıqdan sonra qalan suyu dibçəyə tökün. Bitkilərə çox xeyirlidir.
* Dırnaq boyasından qalan sarılığı götürmək üçün dırnağa sirkə sürtün. Rəngini açacaq.
* Mədəniz bulanırsa bir stəkan qəhvə için.



## Bu 4 qida qaraciyəri təmizləyir

**Bədənin ən vacib detoks orqanı olan qaraciyər sağlamlığımıza birbaşa təsir edir. Bəs qaraciyəri qoruyan və onu toksinlərdən təmizləməyə kömək edən 5 əsas qida hansılardır? Budur elmi araşdırmalara əsasən qaraciyər dostu 5 güclü qida:**

**Qəhvə**

Günü bir fincan qəhvə ilə başlamağın qaraciyər üçün də faydalı olduğu sübut edilib. Araşdırmalar göstərib ki, gündə 3-4 fincan qəhvə içmək qaraciyər serrozuna tutulma riskini azaldır və qaraciyər fermentlərini tarazlayır. Antioksidant tərkibi sayəsində qaraciyərdə yağ və kollagen yığılmasının qarşısını alır.

**Yaşıl çay**

Antioksidantlarla zəngin olan yaşıl çay, xüsusilə alkoqolla əlaqəsi olmayan piylənmiş qaraciyər xəstəliyində (NAFLD) ALT və AST ferment səviyyələrini azalda bilər. Ancaq yaşıl çay əlavələrinin (kapsul şəklində olanların) qaraciyərə zərər verə biləcəyi nəzərə alınmalı və ehtiyatla qəbul edilməlidir.

**Üzüm**

Qırmızı və bənövşəyi üzüm, xüsusilə çərdəkli halda yeyildikdə, qaraciyər iltihabını azalda və hüceyrə zədələnməsinin qarşısını ala bilər. Heyvanlar üzərində aparılan tədqiqatlar üzüm ekstraktının qaraciyərə müsbət təsir etdiyini göstərib, amma insanlarla bağlı daha çox elmi işə ehtiyac var.

**Zeytun yağı**

Zeytun yağı sağlam yağlar arasında önə çıxır. Xüsusilə Aralıq dənizi tipli qidalanmada mühüm yerə sahib olan bu yağ qaraciyərdə yağ yığımını azalda və ferment səviyyələrini yaxşılaşdıra bilər.

Bu qidaları düzgün və balanslı şəkildə gündəlik rasiona əlavə etməklə qaraciyərin yükünü yüngülləşdirmək və onu toksinlərdən qorumaq mümkündür.

# Türkiyədə qəribə hadisə: dönər yeyən şəxsin başına kafenin tavanından güllə düşdü



**Türkiyənin Adana şəhərində şəxs dönər yediyi zaman başından güllə yarası alaraq ağır yaralanıb. Bu barədə "Haber Global" məlumat yayıb.**

Məlumata görə, hadisə yerinə gələn tibb əməkdaşları başından qan axan şəxsə ilkin tibbi yardım göstəriblər və o, təcili tibbi yardım maşını ilə xəstəxanaya aparılıb.

Onun başına güllə dəydiyi müəyyən edilib və həmin şəxs dərhal əməliyyat olunub.

Polis tərəfindən aparılan ilkin araşdırma zamanı güllənin tavandan keçərək düşdüyü müəyyən edilib. Atəş açan şəxsin müəyyənləşdirilməsi üçün istintaq aparılır.

# Hər gün bir qaşıq kərə yağı: diabet riski kəskin azalır



**ABŞ alimlərinin fikrincə, hər gün bir çay qaşığı kərə yağı 2-ci tip şəkərli diabet riskini 31 faiz azalda bilər. Marqarinin isə əksinə, ürəyə zərər verdiyi bildirilir. Hər gün bir çay qaşığı kərə yağı diabet riski kəskin azalır: gündə ən az 5 qram (təxminən bir çay qaşığı) kərə yağı qəbul etmək 2-ci tip şəkərli diabetin yaranma riskini 31% azaldır. Bu xəstəlik isə infarkt və insultun əsas səbəblərindən biridir.**

**Kərə yağının faydaları**

"Yaxşı" xolesterin (HDL) səviyyəsini artırır, damar tıxanmasına səbəb olan zərərli yağların miqdarını azaldır. Bu nəticələr, 1960-cı illərdən bəri formalaşmış və süd məhsullarından alınan doymuş yağların ürək xəstəliklərinə səbəb olduğunu bildirən tövsiyələrlə ziddiyyət təşkil edir.

**Marqarinə gəldikdə isə...**

Onilliklər boyunca sağlam alternativ hesab edilən marqarin şəkərli diabet riskini 40%-dən çox artırır, ürək xəstəlikləri riskini 30 faiz artırır. Tədqiqatçılar bunun səbəbini 1970-ci illərdən etibarən marqarinin istehsalında geniş istifadə olunan trans yağlarla əlaqələndirirlər.

Araşdırmada 30 yaşdan yuxarı olan təxminən 2500 nəfər iştirak edib və onların qidalanma vərdişləri ilə sağlamlıq vəziyyəti illərlə izlənilib. Nəticə olaraq, müntəzəm və az miqdarda qəbul edilən kərə yağının əvvəllər düşünüləndən daha faydalı olduğu təsdiqlənib.

## Ekspertdən xəbərdarlıq: balığın düzgün seçilməməsi təhlükəli xəstəliklərə yol açır

**Amerikalı alim və uzunömürlülük üzrə ekspert Valter Lonqo bildirib ki, balığın düzgün seçilməməsi təhlükəli xəstəliklərə yol aça bilər. Bu fikri o, "El Espanol" nəşrinə müsahibəsində səsləndirib. Lonqo xəbərdarlıq edib ki, bəzi balıq növləri arsen və civə ilə çirklənə bilər. Bu maddələr sinir və immun sistemlərində patologiyaların inkişafı riskini artırır. Ekspert belə halların qarşısını almaq üçün tərkibində külli miqdarda arsen və civə olan tuna və qılıncbalığı yerinə sardin, alabalıq, treska, qızılbalıq, skumbriya və ançous kimi balıqlara üstünlük verilməsini tövsiyə edib.**

## Yaşlı insanlar üçün əvəzedilməz faydaları var



**Qaragilə "pis" xolesterini azaldır, beynin qan dövranını yaxşılaşdırır və yaşlılarda yaddaş və diqqət pozğunluqları riskini azaldır. Bu barədə Vyana Universitetinin "Wiener Kinderstudien Lab" laboratoriyasının alimləri elan ediblər. Tədqiqatın nəticələri "Nutrition Research" jurnalında dərc edilib.**

Araşdırmada 60 yaşdan yuxarı, azhərəkətli həyat tərzi keçirən 55 nəfər iştirak edib. Onlardan bir qrupu gündə iki dəfə qaragilə tozlu içki, digərləri isə plasebo qəbul edib. İçkidəki qaragilə miqdarı təxminən 1.5 stəkan təzə meyvəyə bərabər olub.

Nəticələrə görə, qaragilə qəbul edənlərdə "pis" xolesterin (LDL) azalıb, "yaxşı" xolesterinlə (HDL) bağlı "ApoA-I" zülalının səviyyəsində isə müsbət dəyişiklik baş verib. Həmçinin onların bağırsağında qaragilənin güclü antioksidantları olan antosiyaninləri parçalaya bilən faydalı bakteriyaların sayı artıb.

Alimlər bildiriblər ki, qaragilə həm də C və K vitaminləri, manqan və liflə zəngindir. Bu maddələr immuniteti gücləndirir, sümük sağlamlığını və həzm sistemini dəstəkləyir - bu da yaşlılıqda sağlam qalmaq üçün vacibdir

Kartofa həddindən artıq sevginin fəsadları üzə çıxıb. "Medicina" xəbər verir ki, dietoloq Mariyat Muxina xəbərdarlıq edib ki, kartofa həddindən artıq sevgi erkən qocalmanı təhdid edir. "Kartof yüksək qlisemik indeksə malikdir, buna görə də qanda şəkərin kəskin sıçrayışlara səbəb olur. Buna görə, həftədə 2 dəfədən çox yeyildikdə, insulin müqaviməti və tip 2 diabet riski artır.

Bundan əlavə, kartof çipsləri, qızardılmış kartofda çox miqdarda trans yağ var. Onun sözlərinə görə, bu maddələr pəhrizin ümumi kaloriliiliyini artırmaqla yanaşı, ürək-damar sisteminin sağlamlığına da son dərəcə mənfi təsir göstərir. Eyni zamanda Muxina kartofu pəhrizdən tamamilə çıxarmağı tövsiyə etmədi, çünki onların qaynadılmış və ya bişmiş formada orta dərəcədə istehlakı yalnız sağlamlığa fayda verəcək.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500